www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 10-13 sentyabr 2016-cı il şənbə № 201 (6522) Qiyməti 60 qəpik

**Qurban Bayramınız Mübarək!**

## Gündəm

### "The Washington Post" sükutu pozdu; Bakıya qarşı yeni ittihamlar və çağırışlar

The Washington Post

Fəzail Ağamalı: "Ümidvaram ki, Vaşinqtonun Azərbaycana qarşı münasibətlərində yeni xoşagəlməz çalarlar yaranmayacaq"

yazısı səh.9-da

### Mərkəzi Bank auksiona yarım milyard dollar çıxarır - manat xilas edilir...

yazısı səh.4-də

### "Eldar Sabiroğlu məhkəmədə dedi ki, məni boğazımdan asmaq lazımdır"

yazısı səh.5-də

### Azərbaycan müxalifətinin ABŞ-dan gözləntilərini puç edən səbəblər

yazısı səh.6-da

### Milli Şuranın mitinqi necə keçəcək?

yazısı səh.3-də

### Ələtdə Azad Ticarət Zonası yaradılır

yazısı səh.10-da

### "Qarabağ klanı" Ermənistanda revanşa hazırlaşır - düşmən ölkə qarışa bilər

yazısı səh.13-də

### İsmayıllıdakı velosiped zavodunun bağlanması xəbəri təkzib olundu

yazısı səh.10-da

*Məhbus qadın:*

### "Türmədə uşağım dünyaya gəldi, yoxa çıxardılar, üzünü görmədim"

yazısı səh.14-də

### Dollar cüzi ucuzlaşdı

yazısı səh.2-də

### Ömürlük məhbuslarla bağlı prezidentə müraciət edildi

yazısı səh.10-da

## Böyük savaşa sayılı günlər qaldı - kritik gəlişmə

# İŞİD ÜÇÜN GERİSAYIM BAŞLADI - AZƏRBAYCAN ÜÇÜN DƏ MÜHÜM QƏRAR

Türkiyə və ABŞ terror təşkilatının sonuna çıxmağa hazırlaşır, Rusiya isə... tərəddüddədir; qardaş ölkə bölgədə yeni tarix yazır; növbə bir gün Güney Qafqaza, Qarabağa da çatacaq...




yazısı səh.8-də

## Eldar Mahmudov ikinci cəbhə açır: oyuna "vəzir"dən sonra "fil" qoşulur...

Öz xanasını qorumaq üçün güclü fiqurları qurban verən Eldar Mahmudovun bu taktika ilə həbsdən qurtulduğunu demək olar; Cahangir Hacıyevi danışdıran sabiq nazir indi ortaya Çovdarovu çıxarır; Mahmudov təslim olub, imperiyası başına uçurulub, amma onun missiyası indi tam fərqlidir...

yazısı səh.5-də



*Azay Quliyev:*

### "Bir çox məsələləri dialoq yolu ilə həll etmək mümkündür"

yazısı səh.3-də



*Kamran Əliyev:*

### "Radarlardan şikayət edənlərin əksəri fikri yolda olmayanlardır"

yazısı səh.11-də



*Siyavuş Novruzov:*

### "Xalq sadə dildə izah istəyir ki, əti sabah neçəyə alacaq"

yazısı səh.7-də



# Ali Baş Komandan xidmət müddəti başa çatan əsgərləri ehtiyata buraxdı

**Prezident İlham Əliyev Azərbaycan Respublikası vətəndaşlarının 2016-cı il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında sərəncam imzalayıb.**

Sərəncamda deyilir:

- Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələri şəxsi heyətlə komplektləşdirmək məqsədi ilə qərara alıram:

**1.** 1998-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1981-1997-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikasının vətəndaşları 2016-cı il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

**2.** “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2016-cı il oktyabrın 1-dən 30-dək ehtiyata buraxılsınlar.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün".

# ASAN Xidmət iki gün işləməyəcək

**12-13 sentyabr Qurban bayramı ilə əlaqədar ASAN Xidmət mərkəzləri fəaliyyət göstərməyəcək. Xidmətin informasiya təminatı şöbəsindən Axar.az-a verilən məlumata görə, 14 sentyabrdan vətəndaşlar ASAN Xidmət mərkəzlərinə müraciət etməklə müvafiq xidmətlərdən yararlana biləcəklər.**

Qeyd edək ki, ASAN Xidmət mərkəzləri həftənin bazar ertəsi - cümə günləri saat 10:00-dan 20:00-dək, şənbə və bazar günləri isə saat 10:00-dan 17:00-dək (nahar fasiləsi olmadan) fəaliyyət göstərir.

# Dollar cüzi ucuzlaşdı

**Azərbaycan Mərkəzi Bankı (AMB) ABŞ dollarının sentyabrın 14-nə rəsmi məzənnəsini 1,6390 AZN/USD səviyyəsində müəyyən edib.**

AMB-dən “Report”a verilən məlumata görə, bu, məzənnənin 0,08% azalması deməkdir.

Qeyd edək ki, rəsmi məzənnə sentyabrın 2-6-da 1,6362 AZN/USD, sentyabrın 7-9-da isə 1,6403 AZN/USD səviyyəsində olub.

# Bahalaşan siqaretlərin qiymətləri endirildi

**Azərbaycanda siqaretlərin qiymətləri yenidən enib və son bahalaşmadan əvvəlki satış qiymətlərinə qayıdıb. Bu barədə satış mərkəzlərindən məlumat verilib. Satıcılar bildirib ki, siqaretin yenidən ucuzlaşmasının səbəbi ölkədə xarici valyutaya çıxışın rahatlaşmasıdır. (lent.az)**

“Qaya Mətbuat Yayımı” MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**“Yeni Müsavat” - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Fransa təşkilatı “Vətəndaş Cəmiyyəti Uğrunda” ilə birgə “exit-poll” keçirəcək




**“Vətəndaş Cəmiyyəti Uğrunda” Müstəqil Məsləhət və Yardım Mərkəzi Fransanın “Opinion Way” Sosioloji Tədqiqatlar İnstitutu ilə birgə 26 sentyabr 2016-cı il tarixdə baş tutacaq ümumxalq səsverməsində(referendumda) referenduma çıxarılan səsvermə ilə bağlı “Ekzit-poll” tədqiqatını həyata keçirəcək.**

Bu barədə müsavat.com-a verilən məlumatda qeyd edilir ki, tədqiqatın aparılması üçün Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasında akkreditasiyadan keçən “Vətəndaş Cəmiyyəti Uğrunda” Müstəqil Məsləhət və Yardım Mərkəzi artıq ekzit-poll tədqiqatının hazırlığına başlayıb.

Layihə Fransanın “OpinonWay” Sosioloji Tədqiqatlar İnstitutu ilə əməkdaşlıq formatında həyata keçirilir. “OpinonWay” Sosioloji Tədqiqatlar İnstitutu həm Fransada həm də, beynəlxalq miqyasda nüfuzlu telekanallar və qəzetlərin sifarişi ilə ictimai rəyin öyrənilməsi ilə bağlı tədqiqatlar həyata keçirir. Layihənin həyata keçirilməsində metodoloji dəstək göstərən təşkilatın “exit-poll” (səs verənlərin tədqiqatı) sorğularındakı uğurlu beynəlxalq təcrübəsindən istifadə ediləcək.

Layihə çərçivəsində 26 sentyabr 2016-cı il tarixdə, ümumxalq səsverməsi (referendum) günü 118 seçki dairəsi ərazisində olan 152 seçki məntəqəsində “ekzit-poll” sorğusu həyata keçiriləcək və bu zaman ilkin qiymətləndirmələrə əsasən tədqiqatın 12 000-dən artıq səs verəni əhatə edəcəyi gözlənilir.

Səsvermənin gedişi zamanı həyata keçiriləcək “exit-poll”un nəticələri gün ərzində üç dəfə (saat 13:00, 16:00 və 18:00), günün sonunda isə yekun nəticələr ictimaiyyətə təqdim olunacaq.

Səsvermə zamanı “exit-poll” tədqiqatı keçirilən səsvermənin ədalətli və şəffalığının təmin edilməsində, nəticələrin müqayisəli təhlilində əsas indikatordan biri hesab olunur. Eyni zamanda “Ekzit poll” səsvermənin ədalətli nəticələrinin vətəndaş cəmiyyəti tərəfindən qəbul edilməsində də böyük əhəmiyyətə malikdir.

**Layihə “Azad Azərbaycan” Müstəqil Teleradio Kampaniyasının dəstəyilə həyata keçirilir.**

# Eldar Sabiroğlu iqtidarın ünvanına sərt danışdı

**İki gün öncə rüşvətxorluq ittihamı ilə həbs edilən sabiq müstəntiq Rüfət Səfərovun atası Eldar Sabiroğlu sentyabrın 9-da sərt bəyanat yayıb. Maraqlıdır ki, həmin açıqlaması oğlu Rüfət Səfərovun facebook səhifəsində yayılıb. E.Sabiroğlu oğlunun həbsinin hakimiyyətin sifarişi olduğunu deyib, ona 9 il həbs cəzası verilməsini “amansız” adlandırıb. O, övladının günahsız olduğunu sübuta yetirməyə çalışacağını qeyd edib. “Oğlunun həbsini onun fərqli fikirli olması ilə izah edən E.Sabiroğlu "o bilməliydi ki, belə şeylər hakimiyyət tərəfindən qəbul edilmir. Azad söz, özgür fikir ən qorxulu silah kimi qarşılanır. Milyonlarla rüşvət alanlar, xalqın malını çapıb talayanlar qalır bir kənarda, lakin tutmadığı işə görə, müttəhimlər kürsüsünə günahsız adamları əyləşdirib ən ağır cəzaya məhkum edirlər".**

Eldar Sabiroğlu bəyanatında ölkə rəhbərliyinin ünvanına sərt sözlər işlədib, o, Ramiz Mehdiyevin ünvanına hətta təhqir sayıla biləcək sözlər yazıb.

# Bakıda ər arvadını baltalayıb öldürdü

**Bakıda qətl törədilib. Lent.az-ın məlumatına görə, Səbail rayonu Bayıl qəsəbəsi Xanlar küçəsində yerləşən mənzildə Qasımi Məzahir Hüseynqulu oğlu həyat yoldaşı Fəridə Qasımini baltalayaraq öldürüb. Ağır xəsarət alan qadın hadisə yerindəcə keçinib. Hadisə yerinə hüquq-mühafizə orqanlarının əməkdaşları gəlib, araşdırma aparılır.**



# Natiq Cəfərli həbsdən buraxıldı

**“Real” hərəkatının icraçı katibi, iqtisadçı-ekspert Natiq Cəfərli sentyabrın 9-da axşam saatlarında azadlığa buraxılıb. Bu haqda onun vəkili Cavad Cavadlı facebook səhifəsində yazaraq, məlumat verib.**

O qeyd edib ki, dünən saat 17.00 radələrində onu məhkəməyə çağırıblar və Natiq Cəfərlinin həbsdən azad olunması barədə təqdimata baxıblar. Qısa müddət çəkən məhkəminin sonunda Natiq Cəfərlinin barəsində seçilmiş həbs qət-imkan tədbiri ləğv olunuub və o, məhkəmə zalından azadlığa buraxılıb.

N.Cəfərli avqustun 13-də barəsində saxlanılmışdı. Qanunsuz sahibkarlıqda ittiham olunan iqtisadçı barəsində 4 ay müddətində həbs-qətimkan tədbiri seçilmişdi.

# Hacıqabulda yük maşını ilə “Mercedes” toqquşdu; 1 ölü



**Hacıqabulda 1 nəfərin ölümü, 7 nəfərin xəsarət alması ilə nəticələnən yol qəzası baş verib. Avtosfer.az eltv-yə istinadən məlumat verir ki, hadisə Bakı-Qazax yolunun 122-ci kilometrliyində qeydə alınıb. Qubadlı sakini İzzət Atakişi oğlu İsgəndərovun idarə etdiyi “MAN” markalı yük maşını Yevlax rayon sakini Elşad Süleyman oğlu Qafarovun idarə etdiyi “Mercedes” markalı minik avtomobili ilə toqquşub. Nəticədə “Mercedes”də olan sərnişin - 1958-ci il təvəllüdlü Sabir İsmayıl oğlu Hüseynov qəza yerində dünyasını dəyişib.**

Avtomobilin sürücüsü ağır vəziyyətdə Şirvan şəhər Mərkəzi Xəstəxanasının reanimasiya şöbəsinə yerləşdirilib. Minik maşınındakı Yevlax sakinləri - Aybəniz Arif qızı Hüseynova, İradə və Məshəti Qocayevalar, Ayşən Arzu qızı Haqverdiyeva, 2015-ci il təvəllüdlü Tuncay Ədalət oğlu Hüseynov və Solmaz Ədalət qızı Hüseynova müxtəlif dərəcəli bədən xəsarətləri ilə Şirvan Mərkəzi Şəhər Xəstəxanasına çatdırılıblar.

# İri buynuzlu mal-qara arasında xəstəlik yayılıb - ət alanda ehtiyatlı olun

**Respublikanın bəzi bölgələrində, xüsusən Qərb rayonlarında iri buynuzlu heyvanlar arasında yoluxucu xəstəlik yayılıb. Xəstəliyin müşahidə olunduğu rayonlardan biri də Gədəbəydir.**

Sakinlərin bildirdiyinə görə, bu, dabaq xəstəliyidir. Xəstəliyə tutulan heyvanların ağzı və ayağı yara tökür. Ağızdan yara tökən heyvanlar bəzən ac qaldığı üçün tələf olur.

*Bəs görəsən, bu cür xəstəliyə yoluxan heyvanların kəsilib satışa çıxarıldığı halda, onların ətini təyin etmək mümkündürmü?*

Məsələ ilə bağlı Qaynarinfo.Az-a danışan **Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti Aparatının mətbuat katibi Yolçu Xanvəli** bildirib ki, xəstəliyin yayılması ilə bağlı onlara məlumat daxil olmayıb: “Bununla bağlı bizə məlumat daxil olmayıb. Bu cür infeksion xəstəliklər olduğu halda heyvanlardan nümunə götrülməlidir. Heyvanın ağız suyundan və dırnaq tacından nümunə götürülərək laboratoriyada müayinə edilir. Bundan sonra heyvanın hansı infeksion xəstəliyə tutulması aydın olur. Bu günə qədər nə Qərb bölgəsindən, nə də digər yerlərdən xəstəliklə bağlı məlumat almamışıq”.

**Yolçu Xanvəli qeyd edib ki, belə heyvanlar kəsildikdə onların ətini təyin etmək mümkün olmur:** “Xəstəlik ancaq laboratoriya şəraitində müəyyən olunur. Dabaq xəstəliyi olan heyvanlar ət tökür, arıqlayır. Bu cür heyvanlar kəsilməməlidir. Kəsiləndən sonra onu təyin etmək mümkün olmur”.

**Dövlət Baytarlıq Nəzarəti Xidməti Epidemioloji nəzarət və profilaktika sektorunun müdiri Klimet Əsədov da bildirib ki, onlar tərəfindən dabaq xəstəliyi aşkarlanmayıb:** “Belə heyvanları kəsmək olmaz. Kəsildikdən sonra təyin etmək mümkün olmur”.

# Anasının ölüm xəbərini eşidən sürücü ağır qəza törətdi

**Şəki rayonunda toydan yasa gedən şəxslər qəzaya düşüblər. Avtosfer.az “Report”a istinadən xəbər verir ki, Vaqif Abdullayevin idarə etdiyi "VAZ-21011" markalı avtomobil Qax rayonunun Turaclı kənd sakini Həsən Həsənovun idarə etdiyi "Mercedes" markalı avtomobillə toqquşub. Nəticədə “Mercedes” markalı avtomobildə olan bir ailənin 5 üzvü müxtəlif dərəcəli bədən xəsarətləri alıblar. Yaralılar Qax rayonunun Turaclı kənd sakinləri - “Mercedes”in sürücüsü H.Həsənov, 1976-cı il təvəllüdlü Sevgili Köçəri qızı Həsənova, 1971-ci il təvəllüdlü Səbuhi Əsəd oğlu Həsənov, 1964 - cü il təvəllüdlü Diləfruz Əsəd qızı Vəliyeva, 1958 - ci il təvəllüdlü Türkan Məhəmməd qızı Əsədova Şəki Rayon Mərkəzi Xəstəxanasına yerləşdiriliblər.**

Qeyd edək ki, qəzaya düşən şəxslər Mingəçevir şəhərinə toy mərasiminə gediblər. Lakin onlara Qax rayonunun Turaclı kəndində yaşayan qohumlarının - Həsən Həsənov, Diləfruz Həsənova və Səbuhi Həsənovun anasının ölüm xəbəri verilib. Onlar da Qax rayonuna qayıdarkən yolda qəzaya düşüblər.

YENİ MÜSAVAT
N 201 (6522) 10 sentyabr 2016

# "Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platforması" yaradıldı

## Azay Quliyev: "Bir çox məsələləri dialoq yolu ilə həll etmək mümkündür"




**Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası sentyabrın 10-da "Açıq Hökumət tərəfdaşlığı, Hökumət-Vətəndaş Cəmiyyəti dialoq platforması" təsis yığıncağını keçirildi.**

**Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyev** bildirib ki, dialoq, əməkdaşlıq hər zaman cəmiyyət üçün faydalıdır və bir çox məsələləri dialoq yolu ilə həll etmək mümkündür: "Platforma informasiya əldə etmək, fiksal şəffaflıq ictimai iştirakçılıq üzrə Azərbaycan hökuməti və Milli Məclislə əməkdaşlıq etmək, bu məsələlərlə bağlı hökumətin apardığı islahatlar üzrə tövsiyələr vermək, "Açıq Hökumət" Tərəfdaşlığı Təşəbbüsü çərçivəsində Azərbaycan hökumətinin hazırladığı Fəaliyyət Planının həyata keçirilməsinin monitorinqini aparmaq, "Açıq Hökumət" Tərəfdaşlığı Təşəbbüsündə Azərbaycanın vətəndaş cəmiyyətini təmsil etmək, təşəbbüsdə maraqlı olan dövlət orqanları, yerli vətəndaş cəmiyyəti institutları və beynəlxalq təşkilatlarla, özəl sektor təmsilçiləri ilə əməkdaşlıq və məsləhətləşmələr aparmaq və elektron hökuməti təşviq etmək istiqamətlərində fəaliyyət göstərəcək".

**A.Quliyev deyib ki, platformanın funksiyaları və fəaliyyətinin digər məsələləri təsisatın reqlamenti ilə tənzimlənir və onun fəaliyyəti koordinator tərəfindən əlaqələndiriləcək**: "Platformaya üzvlük bu təşəbbüsü dəstəkləyən hər bir vətəndaş cəmiyyəti, parlament və hökumət təmsilçiləri üçün açıq olacaq. Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynlinin tədbirdə iştirak edir və parlamenti təmsil edir. Bu, Milli Məclisin Platormanın yaradılmasında maraqlı olduğunu göstərir".

Əli Hüseynli çıxışında bildirib ki, bu cür dialoq xüsusi əhəmiyyət kəsb edir.



**O, təəssüf hissi ilə qeyd edib ki, vətəndaş cəmiyyəti ilə dövlət qurumları arasında əməkdaşlıq bir qədər zəifdir**: "Bugünkü etimad mühitindən bir qədər səmərəli istifadə etmək lazımdır. Bu platforma ölkədə aparılan islahatlarda vətəndaş cəmiyyətinin rolunu önə çəkir, işgüzar mexanizmin qurulmasına xidmət edir. Ölkədə iqtisadi islahatlarla bağlı addımlar atılır, burada vətəndaş cəmiyyətinin rolu xüsusidir. Bir daha qeyd edirəm ki, bu işdə vətəndaş cəmiyyəti ilə dövlət qurumlarının əməkdaşlığı zəifdir. Əməkdaşlıq mühitini genişləndirməklə fəaliyyəti səmərəli etmək lazımdır".

Çıxış edən **hüquq müdafiəçisi Novella Cəfəroğlu** bildirib ki, qrant almaqdan məhrum ediliblər. Biz o qrantlarla çox iş görürdük: "Vətəndaş cəmiyyətinin bu gün ən böyük bəlası odur ki, siz bizi bundan məhrum etmisiz. Bizim əsas məsələmiz rayonlara getmək, bələdiyyələrlə işləmək, qadınların hüquqlarını qorumaq və sairə bu kimi işlərdir. Qadınlarla bağlı yeni qanunlar qəbul edilib, ancaq biz onu regionlara çatdıra bilmirik. Yenə də həmin zorakılıq var, erkən nikahlar artıb. Aldığımız 12-13 min pulla bu məsələləri həll etmək olmaz. Ona görə çox xahiş edirəm, bu platformada qrant məsələsinə də yer ayrılsın. Onsuz da qrantlar ayrılır. Ayrı şəhərlərdə hesablar açılır. Həmin pulları alıb vergini də Gürcüstana, Vilnüsə verirlər. O vergilərdən də bizim hökumət xaric olunub. İcazə verin o qrantlar burada alaq".

**Ə.Hüseynli isə buna cavab olaraq bildirib ki, hər bir ölkədə olduğu kimi, Azərbaycanda da qeyri-hökumət təşkilatlarına nəzarət mexanizmi var:** "Qanunlara dəyişiklik edərkən məqsədimiz hansısa qeyri-hökumət təşkilatının fəaliyyətini məhdudlaşdırmaq deyil. Biz bu fəaliyyətin şəffaf olmasına çalışırıq. Qeyri-hökumət təşkilatı adı altında elə qurumlar var ki, çirkli pulların yuyulmasına xidmət edir. Qanunla vətəndaş cəmiyyətinə xidmət edən qurumlar üçün problem yaratmır. Bütün hallarda bu məsələ müzakirə ediləcək, yəni çalışacağıq ki, qanunlara edilən dəyişiklik vətəndaş cəmiyyətinə xidmət edən qurumlar üçün problem olmasın".

**Tədbirdə "Hökumət-Vətəndaş Cəmiyyəti Dialoq Platforması"nın yaradıldığı elan edilib. Yığıncaqda platformanın reqlamenti də qəbul olunub. Əliməmməd Nuriyev platformanın koordinatoru seçilib.**

❑ **Əli RAİS**
**Fotolar müəllifindir**

# Milli Şuranın mitinqinə icazə verildi

## Ekspertlər 11 sentyabr aksiyasının izdihamlı olacağına inanmır




**Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) Milli Şuranın sentyabr 11-də mitinqlə bağlı müraciətinə cavab verib. Cavabda bildirilib ki, Bakı Şəhər İcra Hakimiyyətində mitinqlə bağlı müraciətə baxılıb və Milli Şuranın sentyabrın 11-də, saat 17:00-da Yasamal rayonundakı İdman Sağlamlıq Kompleksinin stadionunda (keçmiş "Məhsul") mitinq keçirməsinə razılıq verilib.**

Milli Şura mitinqi sentyabrın 26-da Azərbaycanda keçirilməsi nəzərdə tutulan konstitusiyaya əlavə və dəyişikliklərlə bağlıdır.

Müxalifətin təşkil etdiyi mitinqlərdə iştirakçıların say məsələsi hər zaman ziddiyyətli məqam olub. Belə ki, iqtidar nümayəndələri iştirakçıların real sayını aşağı, müxalifət nümayəndələri isə bunu olduğundan qat-qat yuxarı rəqəmlərlə açıqlayıblar.

Bir məqam da var ki, müxalifət uzun zamandır ki, mitinq keçirmir. Müxalifət liderlərinin əsas fəaliyyətləri yalnız sosial şəbəkədə, mətbuat səhifələrində müşahidə olunur. Onlar müxtəlif statuslar yazıb, bəyanatlar verib, virtual "mitinq" edirlər. Lakin bu "mitinq"lərə də rəy yazanlar, münasibət bildirənlər elə meydandakıların sayı qədər olur. Eyni zamanda, mitinqlə bağlı xəbərlər də oxunma sayına görə, aşağı sıralarda yer alır.

Milli Şuranın 11 sentyabr mitinqinə də həmişə olduğu kimi sosial şəbəkədə "event" yaradılıb. Hazırkı statistikaya görə, mitinqə 78 min sosial şəbəkə istifadəsi çağırılıb, onlardan yalnız cəmi 1900 nəfəri qatılacağını bildirib.

"Yeni Müsavat"a danışan **ekspert Mehman Əliyev** bildirib ki, təyin olunan mitinqə çox adamın gələcəyini gözləmir: "Bütövlükdə götürəndə insanlarda narazılıq var. Lakin birinci mitinqə adətən fəallar gəlirlər. Bu baxımdan birinci mitinq çox adam yığa bilmir. Bunun üçün müəyyən bir silsilə mitinqlər lazımdır ki, insanlar bura qatılsınlar. Bu səbəbdən mən çox adamın gələcəyini gözləmirlər".

**Ekspert hesab edir ki, bugünkü müxalifət xalqı öz arxası ilə aparmağa qadirdir:** "Əgər müxalifət buna qadir olmasaydı, o zaman hökumət ona məhdudiyyətlər qoymazdı. Əgər məhdudiyyətlər varsa, deməli ki, müxalifət bir güc kimi tanınır". **AVP sədri deputat Fəzail Ağamalı** isə "Yeni Müsavat"a açıqlamasında bildirib ki, Milli Şura və onun arxasında dayanan AXCP-nin Azərbaycanda sosial dayağı yoxdur: "AXCP faktiki olaraq Bakıda bir ofis partiyasına çevrilib. Edilən çağırışlar heç bir reallığı əks etdirmir və buna görə də nəticə verməyəcək. Azərbaycan xalqının mütləq əksəriyyəti ölkə prezidentinin həyata keçirmiş olduğu siyasəti dəstəkləyir. Həm də bu siyasət Azərbaycan xalqının sosial sifarişini özündə ehtiva edir. Xalqın düşündükləri ölkə prezidentinin siyasətində aparıcı xətti təşkil edir".

**Politoloq Ərəstun Oruclu** da bildirib ki, mitinqə çox adamın gələcəyini gözləmir:

"Ümumiyyətlə, hazırda mitinq dövrüdür, yoxsa bu dövr başa çatıb söyləmək çətindir. Hər halda mən hesab edirəm ki, təşkil olunan mitinqə çox sayda adam qatılmayacaq".

**Ağ Partiyanın lideri Tural Abbaslı** isə bildirib ki, mitinqlərdən öncə kütləvilik barədə pessimist fikir söyləmək o qədər də uğurlu hal deyil: "Ancaq cəmiyyətin bugünkü siyasi proseslərə reaksiyasını, siyasi arenanın passivliyini nəzərə alaraq mitinqə gələnlərin sayı ilə bağlı o qədər də optimist deyiləm. Təbii ki, burada təşkilatçıların da bəzi texniki və siyasi səhvlərini nəzərə alarsaq bu bir az da söylədiyim fikrə təsir edər. Yəni o qədər də nikbin deyiləm. Ancaq arzu edirəm ki, mitinq uğurlu alınsın. İnsanlar üçün ən önəmli məsələlərdən biri şəxsi büdcələrinə təsir edən məsələlərdir. Sonuncu dəfə mitinqlər devalvasiya sonrası baş vermişdi və sırf buna hesablanmışdı. Hətta həmin mitinqləri də analiz etdikdə görürük ki, ora da gələnlərin sayı çox deyildi. Bu baxımdan yuxarıda qeyd etdiyim kimi indiki mitinqə də qatılanların çox olacağını zənn etmirəm".

❑ **Əli RAİS**



YENİ MÜSAVAT
N 201 (6522) 10 sentyabr 2016



# Qarabağın “kupçası” - nə qədər ki, o bizdədi...

Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Sərkisyan rejimi növbəti şouya start verib. Heç bir siyasi, iqtisadi müstəqilliyi olmayan Ermənistanda indi də guya koalision hökumət adı ilə kadr “islahatları” başlayıb. Baş nazir, əslən yerli erməni olan Ovik Abramyan artıq istefa verib. Onu qarabağlı, Serj Sərkisyanın adamı sayılan Karen Karapetyanla əvəzləmək qərara alınıb. Əsgəranlı başkəsən Vitali Balasanyan isə yeni müdafiə naziri postuna gətiriləcəyi gözlənilir.**

Sözsüz ki, bununla hakim qüvvə ilk növbədə vasitəçi dövlətlərin, beynəlxalq birliyin diqqətini Qarabağ məsələsində vaxtı çatmış güzəştlər məsələsindən yayındırmağa, vaxt udmağa çalışır. Eyni zamanda Sərkisyan taym-autdan istifadə edib hakimiyyətdəki “Qarabağ klanı”nı daha da gücləndirəcəyinə ümid edir.

Amma nə olsun. Hakimiyyətdəki cinayətkarların yerini dəyişməklə cəm dəyişməz - elə Ermənistanın iqtisadi durumu da. “İlanın ağına da lənət, qarasına da” deyiblər. Nə qədər ki, baş cinayətkar - Xocalı canisi Serj Sərkisyan, onun mənsub olduğu “Qarabağ klanı” işğalçı ölkənin hakimiyyətində qalacaq, erməni xalqı da ağ günə çıxmayacaq.

Qonşu xalqın bədbəxtliyi də bundadır ki, iqtidardakı “müharibə partiyası”na dözüm göstərməklə özü də istəmədən Qarabağda yeni müharibəyə “yaşıl işıq” yandırmış olur. Çünki ötən böyük zaman kəsiyi göstərdi ki, Sərkisyanın kriminal dəstəsi sülh danışıqlarında öz xoşu ilə konstruktiv mövqe tutmayacaq. Onu ya Rusiya buna məcbur edəcək, ya da Azərbaycan Ordusu.

Ermənistanda “milli hökumət” adı altında aparılan son kadr dəyişikliklərinin, Qarabağ məsələsində vaxt udmağa hesablanmış növbəti siyasi şounun arxasındakı başlıca mesaj bundan ibarətdir. Demək, ən əvvəl Azərbaycan düşmən ölkədə baş verənləri ciddiyə alıb müvafiq ölçü götürməli, öz hərbi qüdrətini, işğalçı Ermənistandan əzici hərbi üstünlüyünü daha da artırmalıdır.

Eyni zamanda tarixi fürsəti gözləməli və buraxmamalıyıq. Fürsət isə Rusiyanın Ermənistanı nə vaxtsa öz regional maraqlarına qurban verəcəyi məqamla bağlıdır. Belə bir məqam yetişə bilər. Rusiyalı tanınmış politoloqlardan birinin dediyi kimi, Moskva hər an Ermənistanı öz regional maraqları naminə “xərcləyə” bilər.

Yeri gəlmişkən, ermənilərin böyük siyasətdə hər an qurban veriləcək “peşka” olduğu dünən bir daha təsdiqlənmiş oldu: Almaniya Türkiyənin şərtini qəbul edib və Bundestaqın az öncə saxta soyqırımı tanımaqla bağlı qərarının hüquqi qüvvəsinin olmadığını rəsmən öz xarici işlər nazirinin dilindən bəyan edib. Bu da Türkiyə ilə İncirlik bazası ətrafında siyasi anlaşma kontekstində reallaşıb...

***

Ancaq Ermənistanda hansı siyasi oyunlar və ya tamaşalar oynanılır-oynanılsın, Azərbaycan xalqı öz torpaqlarında heç vaxt ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək. Apreldəki 4 günlük müharibə ilə, blits-hərbi zəfərlə həm düşmənə, həm də bütün dünyaya çatdırılan başlıca mesaj zatən, bu idi. Bunu sonuncu baş məşq də adlandırmaq olar.

Hər necə olmasa, Qarabağa dair BMT qətnamələrini, AŞ PA-nın, Avropa Parlamentinin, NATO PA-nın, İslam Əməkdaşlıq Təşkilatının qərar və qətnamələrini, habelə bizə torpaqları zor gücünə azad eləmək hüququ verən BMT Nizamnaməsini heç kim ləğv eləməyib. Erməni saytlarından birində getmiş yazıya bir soydaşımız yaxşı şərh yazmışdı. Yazmışdı ki, özünüzü öldürməyin, Dağlıq Qarabağın “kupçası” bizdədir, dünya birliyi onu məhz Azərbaycanın tərkib hissəsi kimi tanıyır.

**Nə qədər ki, Qarabağın “kupçası” bizdədi, nə qədər ki, heç bir ölkə Azərbaycanın ərazi bütövlüyünü şübhə altına almır, nə qədər ki, özümüz də bu “kupçadan” imtina etmək fikrində deyilik, Qarabağ heç vaxt erməninin olmayacaq.**

# Mərkəzi Bank auksiona yarım milyard dollar çıxarır - manat xilas edilir...

## Ekspertlər bildirirlər ki, son həftədəki hadisələr vahid oyun, məqsəd isə valyuta alverindən gəlir götürmək idi...

**Son bir ayda dəyərini itirməkdə davam edən manatın məzənnəsi son 2 gündə sabitləşib. Səbəb kimi isə Mərkəzi Bankın bazara milyonlarla dollar vəsait çıxarması göstərilir. Bildirilir ki, durumun daha da pisləşəcəyindən, tam nəzarətdən çıxacağından çəkinən Mərkəzi Bank bazara yarım milyarda yaxın xarici valyuta çıxarmağa razılaşıb.**

İki gün əvvəl isə yarım milyardın xeyli hissəsi - 300 milyon dolları bazara çıxarılıb. Hərraca çıxarılan vəsaitin yüz milyon dollarının Mərkəzi Bank, 200 milyon dollarının isə Dövlət Neft Fondu tərəfindən “qurban edildiyi” bildirilir. Verilən məlumata görə, bununla hökumət ajiotajı səngirmək və təxminən iki ay müddətində valyuta bazarında sabitlik yaratmaq istəyir.

Qeyd edək ki, sentyabrın 8-dən “qara bazar”da dollar enməyə başlayıb. “Report.az” isə bildirir ki, ölkədə fəaliyyət göstərən bəzi kommersiya bankları nağd ABŞ dollarının alışını dayandırıb. Banklar dollar bolluğu yaşandığı üçün indi də valyutanın alış əməliyyatlarına fasilə verib. Dolların satışı isə 1,6900-1,7060 AZN/USD məzənnə diapazonunda aparılır.

“Qara bazar”da isə dolların satışı 1,63 manata kimi qədər geriləyib. Dolların məzənnəsinin bayram günlərində 1,60 AZN/USD səviyyəsinə qədər geriləyəcəyi gözlənilir.

**Ekspert Əkrəm Həsənov** isə məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, bir neçə bankın dollar alması və ya aşağı məzənnə ilə alması hələ o demək deyil ki, dollara tələbat düşüb: “Əksinə, bütün bunlar vahid oyunun təzahürüdür. Əvvəlcə Mərkəzi Bank və Neft Fondu dollar satmadı. Bir neçə həftə ərzində "qara bazar" kef etdi: yüksək məzənnə ilə dollar satdı. Əhalinin, əsasən isə sahibkarların manat ehtiyatlarını əlindən aldı. İnsanların çox son manatını belə dollara dəyişdi ki, gözlənilən devalvasiyadan qazansın. Amma yekunda dollar satışı davam etdi və “qara bazar” azı 9-10 faiz gəlir əldə etdi. İndi də elə təssürat yaratmaq istəyirlər ki, guya dollara tələbat azalıb. Məqsəd odur ki, dolları da indi çox aşağı məzənnə ilə geri alsınlar və gəlirləri daha da artsın. Əgər dollara tələbat azalıbsa, niyə banklar dolları 1,69-1,7 məzənnəsindən aşağı satmır? Deməli, məqsəd dolları baha satıb, ucuz almaqdır. Son həftədəki hadisələr vahid oyun idi. Məqsəd də valyuta alverindən gəlir götürmək, əhalinin və sahibkarların pulunu mənimsəmək idi. Amma təbii devalvasiya təhlükəsi sovuşmayıb. Əvvəllər də qeyd edirdim ki, iki variantdan biri olacaq, kəskin devalvasiya, ya da dollar satışının davamı və ehtiyatların azalması və devalvasiyanın təxirə salınması. İkinci variant oldu. Üstəlik, manat kütləsinin bir hissəsini də yığdılar ki, indi alan az olsun. Əlində manat qalanı da qorxudurlar ki, dollar düşəcək. Amma təbii uzunmüddətli perspektivdə devalvasiya onsuz da qaçılmazdır. Səbəb də sadədir: dollar gəlirlərimiz azalan xətlə gedir, buna görə də dolların bahalaşması labüddür. Süni yolla müvəqqəti dayandırmaq olar, amma çox yox. Baş verənlərin ən böyük mənfi nəticəsi isə onsuz da sarsılmış etimadın tam aradan getməsidir. Uduzan ilk növbədə sahibkarlar oldu. Dollar daha çox onlara lazım idi ki, xaricdən mal ala bilsinlər. Məhz onlara da dolları baha satıb aldatdılar. Onsuz da Azərbaycan da sahibkarlıq üçün şərait azdır və biznesini bağlamaq istəyənlərin sayı daim artır. Bundan sonra daha da artacaq".

**Ekspert Elşad Məmmədov** isə musavat.com-a deyib ki, valyuta bazarında baş verən hadisələr bir daha ölkədə bu bazarın formalaşdırılmasında inzibati amillərin ön planda olmasını nümayiş etdirir: “Belə ki, valyuta bazarına Dövlət Neft Fondu tərəfindən 200 milyon dollar, Mərkəzi Bank tərəfindən isə 100 milyon dollar həcmində həyata keçirilən intervensiyalar bir günün içində valyuta bazarında son həftələr müşahidə edilən trendin tam əksini təşkil edən proseslərə səbəb oldu. Yeni Neft Fondu və Mərkəzi Bankın bazara son aylar müşahidə edilənə nisbətən 6 dəfə böyük dollar təklifinin çıxarması valyuta bazarına təsir edib, manata təzyiqin azalmasına səbəb olub. Xatırlamaq yerinə düşər ki, baş vermiş hər 2 devalvasiyadan sonra da dollara tələbat bir müddət səngiyib, sonra isə bazara iri həcmdə dollar təklifi çıxarılıb və bir müddət manata təzyiqin azalması mövcud olub. Bu dəfə də Neft Fondu və Mərkəzi Bank tərəfindən həyata keçirilən manevr nəticəsində milli valyutaya təzyiq azalıb. Nəticədə manatın kursu bir qədər möhkəmlənib”.

Ekspertin sözlərinə görə, əslində nadir istisnalar olmaqla, hər bir iqtisadi vəziyyətdə dövlətin makroiqtisadi duruma, o cümlədən maliyyə bazarlarında mövcud olan vəziyyətə təsir mexanizmləri olur: “Bu baxımdan, hökumətin maliyyə blokunun belə manevr imkanlarının olmasında təəccüblü bir şey yoxdur. Lakin makroiqtisadi proseslər dinamika baxımından, o cümlədən iqtisadi subyektlərin həmin proseslərə təsir müddətinə görə qısa, orta və uzunmüddətli proseslərə təsnif edilir. Fikrimcə, Neft Fondu və Mərkəzi Bankın son manevrləri bu baxımdan qısamüddətli effekt verə bilər. Belə ki, Mərkəzi Bankın ehtiyatlarının keçən il kəskin azalması səbəbindən bu qurumun davamlı şəkildə bazara valyuta intervensiyaları edəcəyi real görünmür. Neft Fondunun isə intervensiyaları son dövrdə 1 ayda 400-500 milyon dollar təşkil edir. Tədiyyə balansının təhlili isə valyuta bazarının dayanıqlı şəkildə balanslaşdırılması üçün bu həcmin 2-3 dəfə artırılmasının tələb olunmasını göstərir. Bunun baş verəcəyi real görünmür, çünki heç Neft Fondunun büdcə qarşısında öhdəlikləri bu həcmdə intervensiyaları nəzərdə tutmur. Qeyd etmək lazımdır ki, mövcud vəziyyətdə qısamüddətli effekti belə faydalı hesab etmək olar və bu



baxımdan hökumətin bu istiqamətdə atdığı addımlar sözsüz ki, konstruktiv məzmunlu hesab olunmalıdır. Bununla belə, baş verən fundamental makroiqtisadi proseslər, o cümlədən xarici ticarətin, kapital axınının və ümumilikdə, tədiyyə balansının strukturunun dinamikası makroiqtisadi risklərin orta və uzunmüddətli perspektivdə dayanıqlı şəkildə artmasının ehtimalının yüksək olduğunu göstərir. Buna görə də hesab edirəm ki, manatın məzənnəsinin möhkəmlənməsi qısamüddətli məzmun daşıyır və ilin sonuna kimi milli valyutanın zəifləməsi gözlənilir. Analoji iqtisadi durumlarda bu prosesin sərt monetar siyasətlə, pul kütləsinin azaldılması ilə aradan qaldırılmasına dünya təcrübəsində rast gəlinməyib. Burada bir məqama mütləq nəzər salınmalıdır ki, milli valyutanın zəifləməsi heç də həmişə ölkənin iqtisadi vəziyyəti baxımından mənfi qəbul edilmir. Çünki ölkə iqtisadiyyatının ixrac potensialı bir sıra strateji sahələrin inkişafı üçün milli valyutanın zəifləməsi ciddi şəkildə fayda verə bilər. Lakin bunun üçün çevik iqtisadi siyasət həyata keçirilməli, makroiqtisadi siyasətin "qan-damar" sistemini təşkil edən maliyyə resurslarının real sektorun tələb olunan sahələrinə effektiv şəkildə investisiyalar formasında yönəldilməsi ilə həmin sahələrin inkişafına nail olunmalıdır. Fikrimcə, hökumətin iqtisadi bloku maliyyə siyasətini makroiqtisadiyyatdan ayrı deyil, makroiqtisadi siyasətin tərkib elementi kimi qəbul edərək, yuxarıda qeyd etdiyim təsnifata görə, qısa, orta və uzun müddətli tədbirlər proqramı işləyib tətbiq etməlidir ki, iqtisadi problemlərin mənfi fəsadlarının azaldılmasına nail olmaq mümkün olsun".

❑ Röya RƏFİYEVA

**Gələn həftə milli təhlükəsizlik naziri Eldar Mahmudovun vəzifədən çıxarılmasının 11 ayı tamam olur. Ötən il oktyabrın 17-də gözlənilmədən vəzifəsindən uzaqlaşdırılan sabiq nazirin rəhbərlik etdiyi strukturda baş vermiş cinayətlər bütün çılpaqlığı ilə üzə çıxsa da, ən yaxın adamları qandallansa da, özü azadlıqdadır.**

# Eldar Mahmudov ikinci cəbhə açır: oyuna "vəzir" dən sonra "fil" qoşulur...

Öz xanasını qorumaq üçün güclü fiqurları qurban verən Eldar Mahmudovun bu taktika ilə həbsdən qurtulduğunu demək olar; Cahangir Hacıyevi danışdıran sabiq nazir indi ortaya Çovdarovu çıxarır; Mahmudov təslim olub, imperiyası başına uçurulub, amma onun missiyası indi tam fərqlidir...

Şahmatda şah öz xanasını qorumaq üçün güclü fiqurları qurban verdiyi kimi Eldar Mahmudov bu taktika ilə özünü həbsdən qorudu demək olar. İndi onun ən yaxınında olmuş general Akif Çovdarovun məhkəməsi başlamaq üzrədir, qudası Cahangir Hacıyev isə mühakiməsi davam etməkdədir. E. Mahmudov hakimiyyətdə itirilmiş mövqelərinin bir daha bərpa edə bilməyəcəyinin fərqindədir, eləcə də ən yaxın adamlarının dəmir barmaqlıqdan qurtara bilməyəcəyini də yaxşı bilir.

E.Mahmudovun niyə toxunulmaz qaldığı barədə ən ağlasığmaz versiyalar var. Şantaj məqsədi ilə topladığı pornokasetlərdən tutmuş arxasında güclü dövlətlərin kəşfiyyatının dayanmasına qədər versiyalar səslənib. Mahmudovu həbs etmək bir dəqiqənin işidir, onu birinci şəxsin qəzəbindən qoruya biləcək qüvvə yoxdur. Nə xarici kəşfiyyat, nə bildikləri sirlər onu xilas edə bilməz. İmperiyası başına uçurdulsa da, "Mahmudov qorxusu" hələ də var. Ondan bəziləri hələ də çəkinir, adı çəkiləndə danışmağa ehtiyat edir, çoxları isə Çovdarov kimi onun qandallanmış fotosunu görmək arzusu ilə yaşayır, amma çifayda...Ehtimal var ki, Mahmudovu məhz o mifini davam etməsinə görə həbs etmirlər. İddialara görə, Mahmudovun biznesi də, əmlakı da qorunur, bağ evlərində əlavi yemək-içməklər də öz yerində...Hətta oğlu da şəhərdə rahat gəzir, maşınının saxlayan DYP əməkdaşı ilə əvvəlki statusunda danışmaqdan belə çəkinmir. Mahmudov sanki "Domokl qılıncı" kimi bəzi adamların başının üzərində asılıb.

Diqqət edək: Cahangir Hacıyev məhkəmədə mənimsədiyi pulların hesabatını vermək əvəzinə maliyyə naziri ilə vuruşur. Onu ittiham edir, onu devalvasiyada günahlandırır, onu Beynəlxalq Bankda baş vermiş qanunsuzluqlara şərik etmək istəyir. Bundan əvvəl Eldar Mahmudovun xaricdən təşkil etdiyi deyilən "üçqat" agent Samir Şərifovla Cahangir Hacıyevin köhnə hesabları var, elə Eldar Mahmudovla da. Amma bankirin demək olar ki, hər prosesdə Maliyyə Nazirliyini hədəf göstərməsi yalnız özünü qorumaq niyyəti ola bilməz. Cahangir Hacıyevə uzun "srok" görünür, onu hansısa nazirliyi hədəf göstərməsi onun cəzasını azaltmayacaq, əksinə bəlkə də artıracaq. Amma Cahangir Hacıyev susmur. Maliyyə Nazirliyi indiyədək mediada ünvanına səslənən yüzlərlə müxtəlif səpkili ittihamlara bir cümləlik cavab verməyə ərinərdi, indi isə səhifə-səhifə cavablar gəlir. Samir Şərifov ağıllı maliyyəçi olmaqla bərabər, təcrübəli menecer, texnoloqdur. O atılan daşın kim(lər) tərəfindən atıldığını yaxşı bilir, ona görə də müdafiəsini təşkil etmək, qarşı tərəfi susdurmaq üçün hələ heç yerdə səslənməyən Beynəlxalq Bankdan mənimsənilən 5 milyardın ofşor zonalarda gizlədilməsini yada salır, o da mesaj verir...



Akif Çovdarov



Cahangir Hacıyev

Mümkündür ki, C.Hacıyev ona "dil verən"in cızdığı sədlərdən arada kənara da çıxır, ittihamları sərtləşdirir, bəlkə də yaxınlarda daha "güclü bomba" da partladacaq. Qarşıda onun və vəkillərinin məhkəmə çıxışı, son sözü var...

Əsil "bomba" isə Akif Çovdarovdadır. Sentyabrın 20-də məhkəmə qarşısına çıxarılacaq general indidən nələri danışa biləcəyini anons edir. Belə xəbərlər var ki A.Çovdarovun məhkəməsi qapalı deyil, açıq olacaq. Çovdarov bütün hakimiyyətin stixiyasını bilən beş-altı generaldan biridir. O, Cahangir Hacıyevdən daha "çərt qoz" olduğunu artıq sübut edib. Hətta siyasi dustaqların mübarizə metodlarından istifadə edərək aclıq aksiyası keçirib. Üstəlik, məlum olur ki, onun sosial-klan dayaqları da var: Borçalı kökənli Çovdarovun arxasında bu mahalın bir sıra tanınan isimləri dururlar. Deyilən budur ki, Akif Çovdarov proqnozlaşdırılmayan adamdır, yəni o, Cahangir Hacıyevin çıxışlarından daha çox kənara çıxa bilər, hədəfi daha çox məmur, onlarla əməkdaşlıq edən şok agent isimləri ola bilər. Amma istənilən halda, Çovdarov da Eldar Mahmudovun cızdığı plana uyğun olaraq danışacağı gözlənilir. Təsadüfi deyil ki, Şərq-Qərb Araşdırmalar Mərkəzinin rəhbəri, keçmiş MTN əməkdaşı Ərəstun Oruclu Akif Çovdarovun agentura şəbəkəsini ifşa edə biləcəyi ilə bağlı anonsuna "görünür ki, o, yalnız öz adından deyil, həm də keçmiş şefi Eldar Mahmudovun adından bu cür çıxışlar edir... Nə qədər ki, Eldar Mahmudov həbs edilməyəcək, Akif Çovdarov və onun başqa şərikləri belə çirkin işlərlə məşğul olmağa davam edəcəklər. Bütün bunlar o vaxt qurtaracaq ki, Eldar Mahmudov layiq olduğu yerdə - dəmir barmaqlıqlar arxasında əyləşəcək" deyərək, münasibət bildirib.

**Eldar Mahmudov təslim olub, müqavimət göstərmək gücündə də deyil. Amma onun missiyası yuxarıdada deyildiyi kim, indi tam fərqlidir. Bir vaxtlar taxtada fiqurları düzən MTN şefi indi özü bu oyunda adi bir fiqur kimi görünür. Ortaya indi Çovdarovun simasında "fil" çıxarılsa da...**

❑ **"Yeni Müsavat"**

# "Eldar Sabiroğlu məhkəmədə dedi ki, məni boğazımdan asmaq lazımdır"

## Rüfət Səfərovun ağır cəza almasından sonra atası məhkəmədə sərt çıxış edib

**Vəkil Bəhruz Bayramov:** "Sanki hakim təzyiq altında idi"
**Jurnalist Pərviz Həşimli:** "Rüfətə dedim ki, bir qədər gözləsin"

**Müdafiə Nazirliyinin mətbuat xidmətinin sabiq rəhbəri, YAP-ın qurucularından olan Eldar Sabiroğlunun oğlu Rüfət Səfərovun Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 9 il müddətində azadlıqdan məhrum edilməsi barədə xəbər vermişdik. Sabiq müstəntiq hazırda Lənkəranda Müvəqqəti Saxlanma Təcridxanasındadır.**

Yaxın günlərdə R.Səfərov 1 saylı Bakı İstintaq Təcridxanasına köçürüləcək. Müdafiə tərəfi hökmdən apellyasiya şikayəti verəcək. Şikayətə baxıldıqdan sonra isə Səfərov cəzaçəkmə müəssisəsinə köçürüləcək.

Bu barədə "Yeni Müsavat"a sabiq müstəntiqin vəkili Bəhruz Bayramov məlumat verib. Keçirilən məhkəmə prosesi ilə bağlı vəkil bunları deyib: "Hökmdən Apellyasiya Məhkəməsinə müraciət edəcəyik. Hazırda Rüfət Lənkəranda Müvəqqəti Saxlanma Təcridxanasında saxlanılır. Yaxın günlərdə o, 1 saylı Bakı İstintaq Təcridxanasına gətiriləcək. Apellyasiya şikayətimizə baxılana qədər Rüfət bu təcridxanada saxlanılacaq. Mənim narahatçılığım odur ki, məhkəmə müdafiə çıxışım olmadan hökm çıxarırsa, belə qanunsuzluqlar edirsə, hökmü də vaxtında verməsinlər, qanun da qüvvəyə minsin. İndiyə qədər vəkil olduğum müddətdə hələ belə qanunsuz hökmün şahidi olmamışdım. Əsas narahat olduğum məsələlərdən biri də budur. Mənə və müdafiə etdiyim şəxsə çıxışla bağlı imkan verilməməsi Avropa Məhkəməsinin Konvensiyasının 6-cı maddəsinə birbaşa ziddir. Ali Məhkəməyə və ardınca da Avropa Məhkəməsinə müraciət edəcəyik".



Eldar Sabiroğlu



Rüfət Səfərov

**Vəkil hökmdən sonra məhkəmədə yaşananlardan da danışdı:** "Rüfət qərarı adi qaydada qarşıladı. Ayın 7-də hakimin bizimlə razılaşmadan bir gün sonraya proses təyin etməsindən sonra artıq bilirdik ki, ittiham hökmü çıxarılacaq. Hökmün hazır olduğunu da bilirdik. Şahidlərə edilən təzyiqlərdən, onların polisin nəzarəti ilə məhkəmə binasında müvəqqəti saxlanmalarından sonra qanunsuz hökmün çıxarılacağına əmin olduq. Rüfət bunlara hazır idi. Eldar Sabiroğlu hökmdən sonra öz fikirlərini deyib. Geniş açıqlama da olacaq. O, məhkəmədə dedi ki, məni boğazımdan asmaq lazımdır, 20 il xidmət etdiyim hakimiyyət adi sözə görə oğlumu həbs elətdirdi, oğlumun tankı, top-tüfəngi yoxdur, onu yolundan döndərmək istədim, alınmadı, sonra iradəsinin ziddinə getmədim. Məhkəmə o qədər qanunsuz hökm çıxardı ki, yuxarıdan sifariş olmasaydı, bu qədər qanunsuzluğa getməzdi. Sifarişli işlərə çox çıxmışam. Amma burada müşahidə etdim ki, sanki hakim təzyiq altında idi. Vəkillik barəmdə xüsusi qərar çıxartmaq istəyirdilər ki, guya məhkəmə prosesini qəsdən uzadıram. Rüfətin feysbuqda statusları var idi. Əli İnsanova qarşı yeni cinayət maddələrinin açılmasına bir hüquqşünas kimi münasibət bildirmişdi. Düşünürəm ki, hökmdə bunlar əsas rol oynadı. Rüfət yazmışdı ki, 70 yaşında bir insandır, inanmıram ki, bu cinayətləri törətsin. Həbs edilməmişdən 8-9 gün qabaq belə bir müsahibə vermişdi".

Sabiq müstəntiqlə dostluq əlaqələri olan **jurnalist Pərviz Həşimli** isə "Yeni Müsavat"a hökm barədə danışarkən bunları deyib: "Rüfətə dedim ki, həssas məqamdır, hökmünü gözlə. Amma məni eşitmədi. Onu əslində həbsdən sonra tanımışam. Vətənpərvər oğlan kimi qiymətləndirirəm. O, müstəqil şəxs idi. Mən həbsdə olanda bir-iki dəfə mənə vəkil vasitəsi ilə salam göndərdi. Azadlığa çıxdıqdan sonra görüşdük, münasibətimiz yarandı. Vəkilimiz eyni şəxs idi. Bizi vəkil Bəhruz Bayramov tanış etdi. Bir-birimizi həmin vaxta qədər qiyabi tanıyırdıq. Onun fikirlərini yazdığı yazılardan oxumuşam. Görüşəndə yalnız oradan-burdan danışırdıq. Mənə vətənpərvər olan bir gənc təsiri bağışlayıb. Ümumi şəkildə söhbət edəndə deyirdi ki, ədalətsizliyə dözə bilmədim və ona görə istefa verdim. Atasına qarşı olan haqsızlıqdan gileyləndi. Deyirdi ki, atası 20 il xidmət etdi, amma ona qarşı haqsız addımlar atıldı".

Qeyd edək ki, R.Səfərovun qayınatası Yevlax rayon icra hakimi başçısının birinci müavini vəzifəsində işləyir. O, ötən ilin dekabrında Zərdab Rayon Prokurorluğunun müstəntiqi vəzifəsindən istefa verib. Bu il yanvarın 15-də Binəqədi rayon Məhkəməsinin qərarı ilə barəsində 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

Həmin qərardan məhkəməyə müraciət olunaraq, həbs qərarının ev dustaqlığı ilə əvəz olunması istənilib. Yanvarın 22-də onun müraciətinə Binəqədi rayon Məhkəməsi tərəfindən baxılıb və barəsində seçilmiş həbs-qətimkan tədbiri ev dustaqlığı ilə əvəzlənib.

**R.Səfərov Cinayət Məcəlləsinin 311-ci (rüşvət alma) maddəsi ilə təqsirləndirilir.**

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 201 (6522) 10 sentyabr 2016

# Azərbaycan müxalifətinin ABŞ-dan gözləntiləri

## Ümidlərin və gözləntilərin heçə çıxması yeni vəziyyət yaradıb

**Azərbaycanda müxalifət partiyaları 1990-cı illərin sonları, 2000-ci illərin əvvəllərində Qərbdən gələn hər bir bəyanata, açıqlamaya, səfərlərə həssaslıqla yanaşırdı. Demokratiyaya dəstək məsələsində Qərbə böyük ümidlər var idi. Əsasən də ABŞ-dan Azərbaycanda demokratiya ilə bağlı verilən ən adi bir bəyanata Azərbaycanın demokratik qüvvələri ümid işığı olaraq yanaşırdı. Amerikada keçirilən prezident seçkiləri də böyük həvəslə izlənirdi.**

Okeanın o tayında fövqəldövlətdə hansı siyasi qüvvənin hakimiyyətə gələcəyi, kimin prezident seçiləcəyinə Azərbaycan müxalifəti o dərəcədə həssaslıqla yanaşırdı ki, sanki Azərbaycanın taleyi həll edilirdi. Bu diqqət ondan qaynaqlanırdı ki, müxalifət nəhayət, ABŞ-ın, Qərbin Azərbaycanda demokratik proseslərə real ciddi dəstək verəcəyini gözləyirdi, buna ümid edirdi. Son illərdə müxalifətin okeanın o tayına ümidləri sanki yox olub. Belə təəssürat var ki, müxalifət artıq Qərbdən üz döndərib, əlini üzüb, Qərbə inamını itirib.

Bu mövzuda söhbət etdiyimiz **ADP sədri Sərdar Cəlaloğlu** bildirdi ki, bu gün dünyada təhlükəsizliklə bağlı o qədər problemlər var ki, insan hüquq və azadlıqları, demokratiya məsələlərində əməkdaşlıq ikinci plana keçir. Yaxın Şərqdə müharibə gedir, Ukraynanın bir hissəsini Rusiya işğal edib, ümumiyyətlə, dünyada çox ciddi təhlükəsizlik problemi yaşanır. Ona görə də dünyada prioritet məsələləri demokratiya və insan haqları məsələləri təşkil etmir.

Ona görə də müxalifət başa düşür ki, boşuna ümid etməyə dəyməz, Qərb, beynəlxalq birlik qeyd olunan həmin ciddi problemlər, təhlükələr aradan qalxana qədər heç bir ölkədə demokratiyaya açıq və səmimi şəkildə dəstək verməyəcək: "Məsələnin ikinci tərəfinə gəldikdə, bizim uzun illər apardığımız siyasət yalnız Qərbin mövqeyi ilə, ümidlərimizi yalnız Qərbə bağlamaqla bağlı deyildi. Bir tərəfdən, ölkədə müxalifət güclü idi, xalq xeyli dərəcədə təşkilatlanmışdı, digər tərəfdən, Qərbin özü də demokratiyaya bu və ya başqa şəkildə dəstək verməyə cəhd edirdi. Bu faktorların hamısı bir yerdə olanda belə təəssürat yaranırdı ki, müxalifətin yeganə ümid yeri Qərbdir. Bu gün Qərb Azərbaycanda demokratik dəyişikliklər istəsə belə, hazırda Azərbaycanda demokratik dəyişikliklərin həyata keçməsində rol oynayacaq tərəf-qüvvə yoxdursa, Qərbin istəyi nəyi həll edəcək? Heç nəyi. Məsələn, fərz edək ki, Qərb indiki vəziyyətdə istəyəcək ki, Azərbaycanda bir demokratik seçki keçirilsin. Əgər ortada ciddi demokratik müxalifət yoxdursa, Qərb nə qədər çalışsa da, demokratik seçki keçirilməsi mümkün olmayacaq. Bizim Qərbin bəyanatlarına, addımlarına illər öncə olduğu kimi, ciddi reaksiya verməməyimiz əlimizi Qərbdən üzməklə bağlı deyil. Səbəb odur ki, artıq müxalifət kifayət qədər zəif düşüb, elə Qərbin də dolayısı ilə iştirakı ilə müxalifət ölkədə sıxışdırılıb siyasi səhnədən az qala çıxarılıb".



**ADP sədri Azərbaycanda əvvəlki illərdən fərqli olaraq hökumətin ancaq dini qruplaşmalardan danışdığını da demokratik müxalifətin siyasi sistemdən sıxışdırılmasının nəticəsi hesab edir:** "Əvvəllər demokratik qüvvələrdən danışırdılar. Efirdən ADP-ni, Müsavatı, AXCP-ni söyürdülər. Bu gün isə sanki nə Müsavat, nə AXCP, nə ADP var. Son illərdə daha çox dini qruplaşmaları söyürlər. İllərdir aparılan siyasətin nəticəsində demokratik müxalifətin yerini radikal dini təmayüllü qüvvələr tutub. Qərbin verdiyi bəyanatlar Azərbaycanda demokratik müxalifət öndə olduqda əhəmiyyət daşıyırdı. İndiki vəziyyətdə Qərbdən verilən bəyanatlar həm də buna görə əvvəlki kimi ciddi qarşılanmır, ümid yaratmır. Nə qədər ki, demokratik müxalifət zəif durumdadır, dini radikal qüvvələr təşəbbüsü ələ alıb, Qərb ölkədə demokratiyaya nə qədər dəstək vermək istəsə belə, radikal dini müxalifət buna imkan verməyəcək".

**S.Cəlaloğlu dedi ki, müxalifət qüvvələr nisbətini ölçüb-biçir, geopolitik vəziyyətə, beynəlxalq konyukturaya baxır**: "Görürük ki, boşuna ümidlənməyə dəyməz, Qərb hətta istəsə belə Azərbaycanda demokratiya qurulsun, indiki şərtlər daxilində ölkədə demokratikləşmə həyata keçirmək mümkün deyil. Əgər Azərbaycan müxalifəti əvvəlki gücünə qayıtmasa, itirdiyi mövqeləri yenidən bərpa eləməsə, indiki şərtlər altında Qərb də, hətta İlham Əliyev də istəsə, Azərbaycanda demokratiya olmayacaq. Demokratiyanı qurmaq üçün subyekt olmalıdır. Subyekt sıradan çıxarılıbsa, proses radikal dini müxalifətlə aparılacaq? Axı bu mümkün deyil. Ən qəribəsi budur ki, Qərb demokratik müxalifətin güclənməsi üçün hələ heç bir ciddi addım atmır. Qərbin hərdənbir verdiyi bəyanatlar, hərdən iqtidara sərt münasibət bildirməsi, ABŞ-da kimin prezident seçilməsi həm də buna görə bizi əvvəlki kimi maraqlandırmır".

**Həmsöhbətimiz vurğuladı ki, əgər Qərb Azərbaycanda demokratiya istəyirsə, birinci növbədə ölkənin daxilindəki demokratik müxalifətin güclənməsinə çalışmalıdır:** "Son hadisələr göstərdi ki, iqtidarın özünün də marağı bunu tələb edir. Vaxt var idi demokratik müxalifətin minlərlə üzvünü mitinqlərdə polis əlində dəyənək döyürdü, qovurdu. Lakin demokratik müxalifətin həmin minlərlə üzvü polisə müqavimət belə göstərmirdi. İndi 10-15 radikal dini qrup üzvünün qarşısına göndərilən polislər öldürülür, polisə atəş açılır. Demokratik müxalifətlə radikal müxalifət qruplarının fərqi bax budur. Demokratik müxalifət sıradan çıxdıqca, narazı insanlar gedib həmin o radikal qrupların sırasına qoşulur. Burda artıq Qərbə ümid-filan kimi məsələlər rol oynamır".

❑ Etibar SEYİDAĞA

# ABŞ və NATO Qara dənizi ələ keçirir

## Ukrayna müdafiə nazirinə ABŞ generalının müşavir təyin edilməsi, Gürcüstanda NATO çevik qüvvələrinin yerləşdirilməsi böyük planın tərkib hissəsidir




**ABŞ ordusu Mərkəzi Komandanlığının (CENTCOM) sabiq komandanı Con Abizaid Ukrayna müdafiə nazirinin baş müşaviri təyin olunub. General Abizaidin vəzifəsi Ukrayna ordusunun NATO standartlarına çatdırılması üçün lazım olan islahatların həyata keçirilməsini təmin etməkdir.**

Ekspertlər bu hadisəni önəmli gəlişmə hesab edirlər. ABŞ-la NATO-nun Gürcüstan və Ukraynaya dəstəyinin, Gürcüstanın NATO-ya inteqrasiyasının NATO-nun Qara dənizdə geniş arealda yerləşməsi üçün ciddi addımlar olduğu göz önündədir. Ekspertlər qeyd edirlər ki, bu aktivliyin səbəblərindən biri də NATO-nun yeni Qara dəniz strategiyası və bu çərçivədə Rusiyanın oradan sıxışdırılması yönündə qarşıya qoyulmuş vəzifədir. NATO üzvləri ilə birlikdə Ukrayna və Gürcüstana da bu məsələdə rol ayrılıb.

Bu günlərdə Tiflisdə NATO-nun qərarverici orqanı-Şimali Atlantika Şurasının və NATO-Gürcüstan Komissiyasının iclaslarının keçirilməsi, ABŞ ordusu Mərkəzi Komandanlığının (CENTCOM) sabiq komandanı general Con Abizaidin Ukrayna müdafiə nazirinin baş müşaviri təyin olunması hər iki postsovet respublikasına NATO və ABŞ-ın hansı dərəcədə əhəmiyyət verdiyini daha bir sübutudur.

Bu mövzuda "Yeni Müsavat"a şərhində **Avro-Atlantik Şuranın və Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər** bildirdi ki, NATO-nun 8-9 iyulda Varşavada keçirilən sammiti çox mühüm qərarların qəbulu ilə yadda qalmışdı. 2014-cü ilin martından başlanan Ukrayna böhranından sonra artıq postsovet məkanına yönəlik həm ABŞ-ın, həm NATO-nun, eyni zamanda Avropa Birliyinin strategiyası dəyişib: "İlk növbədə ABŞ öz milli təhlükəsizlik strategiyasını 2015-ci ilin fevralında yenilədi və bütün dünyaya bəyan elədi ki, Amerikanın milli təhlükəsizlik strategiyasının başlıca hədəfi Rusiyanı durdurmaqdır. Bundan sonra ABŞ həm NATO-da, həm də Avropa Birliyində əsasən bu strategiyanın qəbul etdirilməsinə nail oldu. ABŞ bu strategiyanı NATO-nun son sammitində də inkişaf etdirdi və bunun praktik nəticələri oldu. Praktik nəticələri NATO-nun Şərqi Avropada, eyni zamanda Qara dənizdə möhkəmlənməsi haqqında qərarların verilməsinə gətirib çıxardı, həmçinin bu istiqamətdə praktiki addımlar da atıldı. Bu məqsədlə NATO-nun çevik qüvvətləri yaradılıb, 6 Şərqi Avropa ölkəsində həmin çevik qüvvətlərin qərargahları yaradıldı, intensiv təlimlər keçirildi. Baltikyanı ölkələrində və Şərqi Avropa ölkələrində ABŞ başda olmaqla NATO-nun hərbi varlığı artırıldı. Bu proses hələ də davam edir. Ən mühümü isə Qara dənizdə NATO-nun fulotunun yaradılması haqqında prinsipial qərar verilib və müzakirələr başlayıb. Bu gün Türkiyədə baş verən dövlət çevrilişinə cəhd də, Rusiyanın geopolitik Suriya həmləsi də bununla bağlıdır. NATO-nun Qara dənizdə hərbi iştirakını yaratması və artırması ilə bağlıdır. Türkiyədə dövlət çevrilişinə cəhd Ərdoğan hakimiyyətinə son qoymaq və NATO-nun, ABŞ-ın Qara dənizə yolunu açmaq həmləsi idi. Ona görə də bu hadisədən dərhal sonra Rusiya ilə Türkiyə arasında barışıq dərhal reallaşdı. Rusiya çevrilişə cəhd hadisələri zamanı Ərdoğan hakimiyyətini dəstəklədi".

### Sülhəddin Əkbər: "Azərbaycan zamanında strateji seçim etmədiyi üçün ortada qalacaq"

**Ekspert vurğuladı ki, NATO-nun və ABŞ-ın Qara dənizdə hərbi varlığını artırmaq istiqamətində ən mühüm addımlardan biri də Gürcüstan və Ukrayna haqqında ciddi qərarların qəbul olunmasıdır:** "Gürcüstanın demək olar ki, NATO-ya hazırlığı başa çatıb. Artıq bu ilin mayında Gürcüstanda NATO-nun 500 nəfərlik çevik hərbi kontingenti yerləşdirilib. Artıq Azərbaycanın da sərhədlərində məhdud sayda olsa da, NATO qüvvəsi may ayından mövcuddur. Ukrayna ilə bağlı isə qərar verilib ki, Ukrayna hərbi qüvvələri 2020-ci ilə qədər NATO standartlarına uyğunlaşdırılsın. Bunun üçün konkret proqram var. Proqrama görə 2018-ci ilə qədər Ukraynanın Müdafiə Nazirliyi, 2020-ci ilə qədər isə bütün Ukrayna Silahlı Qüvvələri NATO standartlarına uyğunlaşdırılmalıdır və Ukrayna NATO üzvlüyünə hazır vəziyyətə gətirilməlidir. Bundan sonra geopolitik qarşıdurma Ukrayna-GUAM xəttində, eyni zamanda Cənubi Qafqazda və Mərkəzi Asiyada gedəcək. Bu proses artıq başlayıb. Rusiyanın cənubunda artıq destabilizasiya zonası yaradılır. Rusiyanın özünün bölgədə yaratdığı münaqişələr Rusiyanın özünün geosiyasi, geostrateji maraqlarının əleyhinə çevriləcək. Oyun postsovet məkanında ciddi şəkildə gedəcək". Bu oyunda Azərbaycanın yerinin və durumunun necə olacağına gəlincə, S.Əkbər dedi ki, Azərbaycan NATO-ya inteqrasiya proseslərindən çox-çox geridədir: "Azərbaycan zamanında öz strateji seçimini etmədi, demokratik dünyaya, o cümlədən Avropa Birliyinə, NATO-ya inteqrasiya yolunu tutmadı. Ona görə də indi ortada qalacaq. ABŞ, NATO, Avropa Birliyi bir tərəfdə, digər tərəfdə isə Rusiya, Avrasiya İttifaqı, KTMT-dir. Azərbaycan bu iki tərəf arasında boz zonada qalıb. Hər iki tərəfin təzyiqini Azərbaycan hiss edəcək. Nəticədə Azərbaycanda ictimai, siyasi, sosial, iqtisadi vəziyyət kəskinləşəcək".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 201 (6522) 10 sentyabr 2016

**Ölkədə sentyabrın 26-da keçiriləcək ümumxalq referendumuna hazırlıq gedir. Bu prosesə ən ciddi hazırlaşan isə hakim Yeni Azərbaycan Partiyasıdır. "Yeni Müsavat"ın müxbiri YAP-ın referendum hazırlıqları ilə tanış olmaq üçün partiyanın mərkəzi qərargahına baş çəkib.**



# "Vəzifədən çıxarılan şəxslərin nurçuluqla əlaqəsi yoxdur"

## Siyavuş Novruzov: "Xalq sadə dildə izah istəyir ki, əti sabah neçəyə alacaq"

İlk baxışdan partiyada səssizlik hökm sürürdü. Demək olar ki, qərargahda kimsə gözə dəymirdi. Otaqlarda isə referendum təşviqat qrupunun kuratorları hazırlıqları davam etdirirdi. Dediklərinə görə, hər gün yerlərdə seçicilərlə 4-5 görüş keçirirlər. İşlər əsasən yerlərdə aparılır, partiyada isə ancaq plan və proqramlar hazırlanır. Bu mənada elə də qaynar iş mühiti nəzərə çarpmırdı. Partiyada bizi YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov qarşıladı və referendum hazırlıqları, ölkədə gedən ictimai-siyasi proseslər və başqa mövzularla bağlı suallarımızı cavablandırdı.

Müsahibənin ikinci hissəsini təqdim edirik.

(Əvvəli ötən sayda)

***- Dini cərəyanlardan söz düşmüşkən, hazırda aktual məsələlərdən biri də "gülənçi"lərdir. Türkiyədəki hadisələrdən sonra məlum oldu ki, Azərbaycanda da, hətta yüksək vəzifələrdə nurçu və "gülənçi"lər var imiş... Hazırda hakimiyyət daxilində hər hansı təmizləmə aparılırmı? Yaxud, aparılması nəzərdə tutulubmu?***

- Azərbaycanda heç kim siyasi və dini baxışlarına görə işdən azad olunmur. İşinin öhdəsindən gələ bilmədiyinə görə azad olunur. Bəzi dövlətlər Azərbaycanda müxtəlif adlar altında öz qruplarını yaratmağa cəhd göstərib. Biri demokratiya adı altında, başqası insan hüquqları adı altında, o biri vətəndaş cəmiyyəti adı altında, digəri din pərdəsi altında özlərinin xarici kəşfiyyat nümayəndələrini burada yetişdirməyə cəhd göstəriblər. Azərbaycan xalqının tarixən formalaşmış milli-mənəvi dəyərləri var. Hər bir insanın inancına qiymət verilir. Vəzifədən azad olunanlara gəlincə, onlar öz işlərini lazımınca yerinə yetirə bilmədikləri üçün işdən çıxarılıblar. Burada nurçuluqdan, vəhhabilikdən söhbət gedə bilməz. Ancaq görürük ki, gündəmə çıxarılır, kimlərsə bu məsələlərdə maraqlıdır. Azərbaycan güclü dövlətdir, bunu da şərtləndirən əsas məsələ xalqla iqtidarın birliyidir. Xalq prezidentin siyasətini tam dəstəkləyir və görür ki, xarici siyasətdə də ölkə başçısı heç bir bloka qoşulmadan, heç bir dövlətdən asılı qalmadan ölkəni məharətlə idarə edir.

**"Bizə gələn məhsulların bir hissəsi xaricdən gəlir, onların qiyməti qalxırsa, onu baha alıb ucuz satmaq qeyri-mümkündür"**

***- Qayıdaq referendum məsələsinə... Referendumdan sonra hansı struktur islahatları aparılacaq?***

- Aparatın təkmilləşdirilməsi üçün islahatlar aparılacaq. Əgər biz konstitusiyada dəyişikliklər nəzərdə tutmuşuqsa, ona uyğun olaraq dəyişikliklər olacaq.

***- Məlumatlar var ki, referendumdan sonra prezident və parlament seçkiləri keçirilə bilər. Bu, doğrudurmu?***

- Qəti şəkildə bu olmayacaq. Parlament də seçilib, prezident də. Onların da öz müddətləri var. Yeni seçkinin keçirilməsi üçün heç bir zərurət yoxdur. Həmin müddət başa çatandan sonra yenidən seçkilər keçiriləcək. Bu zaman konstitusiyanın yeni tələblərinə uyğun keçiriləcək, prezidentlik müddəti 5 yox, 7 il olacaq. Amma bu, 2018-ci ildən sonrakı dövr üçün nəzərdə tutulub. Bəzi adamlar özlərinə tərəfdar yığmaqdan ötrü deyirlər ki, referendumdan sonra parlament və prezident seçkiləri keçiriləcək. Ancaq belə bir şey gözlənilmir. İdarəçiliklə bağlı dəyişikliklər olacaq. Yeni institutlar yaranacaq, islahatlar həyata keçiriləcək. Azərbaycanda mütəmadi islahatlar həyata keçirilir. Ölkə başçısının sərəncamı ilə hər gün yeni təşkilat və ya qurum yaradılır. Bu, xalqdan, cəmiyyətdən gələn tələbatın əsasında edilir. İstər tikinti üzrə, istər satınalmalar üzrə, istər ərzaqla bağlı agentliklər yaradılır. Konstitusiyada edilən dəyişikliklər isə insan hüquq və azadlıqları ilə bağlıdır.

***- Siyavuş müəllim, cəmiyyətdə ən çox tənqid olunan Nazirlər Kabinetindəki yaş məsələsidir. Referendumdan sonra keçiriləcək islahatlarda hakimiyyət komandasının tərkibini gəncləşdirəcəkmi?***

- Bu yaş məsələsi dünyanın əbədi mövzularından biridir. Azərbaycanda bu məsələlər çox düzgün tənzimlənir. Yaşın aşağı həddi ola bilər, yaşın yuxarı həddi yoxdur. İnsan yaşlandıqca, daha çox müdrikləşir, öz imkanlarını idarəçiliyə səfərbər edir. Çünki o insan bir sıra qayğılardan azad olur, əsas fəaliyyətini işinə yönəldir. Biz hamımız yaşlanacağıq, o yaşa gəlib çatacağıq. Bu baxımdan hesab etmirəm ki, insanı yaşla imtahana çəkmək lazımdır.

***- Referendumdan sonra Nazirlər Kabineti vitse-prezidentlik institutu ilə paralel olaraq fəaliyyətini davam etdirəcəkmi?***

- Nazirlər Kabineti Konstitusiya ilə təsbit olunub. Əgər o, ləğv olunmalı olsaydı, konstitusiyadan çıxarılardı və referenduma salınardı. Nazirlər Kabinetinin statusu Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyənləşir. Vitse-prezidentlik tamam başqa bir sahədir. Vitse-prezidentlər cənab prezidentin müxtəlif sahələr üzrə müəyyənləşdirdiyi kadrlar olacaq. Bəzən hüquqşünaslar bunu tamam başqa istiqamətdə yozurlar. O da bilməməkdən irəli gəlir. Bir az konstitusiyanı oxusunlar, o zaman görəcəklər ki, hər bir strukturun öz yeri var.



**"Parlament də seçilib, prezident də. Referendumdan sonra yeni seçkilər keçirilməyəcək"**

***- Azərbaycanda hazırda müxalifətin bacarmadığını "dollar" edir. Belə ki, dolların bahalaşması ilə əlaqədar bazarlarda qiymət artımı davam edir. Xalq bundan ciddi şəkildə narazıdır, yəqin ki, mənimlə razılaşarsınız. Ekspertlər deyir ki, sosial partlayış ola bilər. Hökumət bunun qarşısını almaq üçün nə edəcək?***

- Hökumət bu gün kifayət qədər addımlar atır. Lakin burada problem təkcə bizdən asılı deyil. Biz sərhədləri bağlı olan bir dövlət deyilik. Bizə gələn məhsulların bir hissəsi xaricdən gəlir, onların qiyməti qalxırsa, onu baha alıb ucuz satmaq qeyri-mümkündür. İqtisadiyyatın qaydaları var. İstənilən bir dövlətə gedin. Əvvəlki illərə nisbətən qiymətlər 25-30 faiz qalxıb. Bu proses bütün dünyada gedir. Maksimum çalışırıq ki, bunun qarşısını alaq. Süni şəkildə qiymətlər artmasın, işbazlar əhalinin cibinə girməsin və sair. Ancaq reallıq odur ki, bir çox ölkələrin milli valyutası devalvasiyaya uğrayır. Məsələn, Rusiyada rubl 200 faizə qədər ucuzlaşıb, Türkiyədə vaxtilə bir dollar 1,8 lirə idi, indi 3 lirəyə bərabərdir. Götürək, ABŞ-a bərabər iqtisadiyyatı olan Çinin milli valyutası yuanı, o da dəyərdən düşüb. Mən sizinlə şərikəm ki, insanlar bu durumdan narazıdır. Ancaq bir iqtisadçı çıxıb televiziyaya xalqı başa salmalıdır ki, bu, tək bizə aid olan məsələ deyil. Bu, dünyada baş verən proseslərin nəticəsidir. Bir neçə misal çəkmək olar ki, yumurtanın qiyməti Rusiyada necədir, Türkiyədə necədir, Azərbaycanda necədir. Bununla da əhalini başa salmaq olar. İndi çıxıb danışırlar makroiqtisadi sistem belə getdi, mikroiqtisadi sistem belə gəldi... Vətəndaş bunu başa düşmür, xalq sadə dildə izah istəyir ki, əti sabah neçəyə alacaq. Bunu ona başa salmaq lazımdır.

**"Bəzi ölkələr demokratiya, insan hüquqları, vətəndaş cəmiyyəti, din adı altında özlərinin xarici kəşfiyyat nümayəndələrini Azərbaycanda yerləşdirməyə cəhd göstərirlər"**

***- İqtisadçılar belə izah edirlər ki, Azərbaycanın yetərincə potensialı olduğu halda, özü bir corab belə istehsal etmir. Nəticədə ölkədə ciddi şəkildə idxaldan asılılıq var, daxili istehsal yoxdur...***

- Yox, daxili istehsal var. İstehsal müəssisələri tələbat əsasında yaradılır. Tutaq ki, bəzi dövlətlər hər hansı məhsulu milyardlarla istehsal edir və onun maya dəyəri həddindən artıq ucuz başa gəlir. Azərbaycan kimi kiçik ölkələrdə isə bu qədər istehsal üçün bazar yoxdur. Əvvəlcə bazar müəyyən olunmalıdır, sonra istehsala başlamaq lazımdır. Əgər bazar yoxdursa, həmin məhsulu istehsal etmək xeyir gətirmir. Azərbaycanda hazırda kənd təsərrüfatı məhsulları yüksək səviyyədə istehsal olunur və dünya bazarına çıxır. Bu sahənin inkişafı ilə bağlı cənab prezidentin tapşırığı var. Pambıqçılıq, ipəkçilik və digər sahələrin inkişafı üçün qərar qəbul edilib. 150 min hektardan artıq hasarlanmış torpaq sahələrinin hasarları sökülüb, onlar istehsala qaytarılıb. Bununla bağlı biz konstitusiyaya əlavə də eləпод ki, əgər torpaq sahəsi istifadəsiz qalıbsa, mülkiyyətçinin kim olmasından asılı olmayaraq, istehsala qaytarılmalıdır. Bütün bunlar ölçülüb-biçilir, addımlar atılır.

Sənaye məhsullarına gəlincə, biz onu nə Yaponiyadan, nə də Almaniyadan daha keyfiyyətli istehsal edə bilməyəcəyik. İstənilən istehlakçı da xarici mallara üstünlük verəcək .Həm maya dəyəri ucuz başa gələcək, həm də keyfiyyəti daha yaxşı olacaq. O zaman bunu istehsal etməyin mənası nədir? Hər məhsul üçün bir zavod açsaq, o effekti verməyəcək. Onu da insanlara düzgün çatdırmaq lazımdır. Biz nəyi bazarda sata biliriksə, onu istehsal etməliyik. Məqsəd təkcə daxili tələbat deyil, hər hansı məhsul istehsal edilirsə, onun üçün xarici bazarda olan tələbat da nəzərə alınmalıdır.

**"İnsanlar hazırkı bahalaşmadan narazıdır. Ancaq bir iqtisadçı çıxıb xalqı başa salmalıdır ki, bu, tək bizə aid olan məsələ deyil, dünyada baş verən proseslərin nəticəsidir"**

❑ **Nərgiz LİFTİYEVA**
**Foto: Məğrur MƏRD**



# Quyudakı nənənin krediti

**Zamin HACI**
zaminhaci@gmail.com

**Bakının, ümumən respublikanın əsas içməli su mənbələrindən ikisi şimal regionumuzdadır. Ancaq dünən rəsmi xəbərlərdə baxıram ki, Qusar və Xaçmaz rayonlarında içməli su təchizatı sistemi qurulub, bunu da hələ Yaponiya hökumətinin yardımı ilə etmişik. Bir aralar amerikalılar da Masallı kəndliləri üçün artezian quyusu qazırdılar.**

Paytaxta su göndərən region özü indiyəcən susuz qalıbmışsa, belə ölkəyə nə deyəsən? Oturub halımıza ağlamaq lazımdır. Gürcülər üçün Avropaya Şengen vizası ləğv olunmaq üzrədir, biz isə Bakıya gələn ərəblərə sevinirik. Burda bir gündəmə uyğun müşahidəmi yazım. (Gündəm oğru dünyasıdır). Məncə Qafqazın lotusu, bərkgedən oğlanları həmişə gürcülər olublar, biz və ermənilər yalandan səs-küy salmışıq. Misal çəkim, özün bax.

Vaxtilə SSRİ-nin lotusu Stalin gürcü idi. Məxməri inqilabların ən uğurlusunu Mixail Saakaşvili elədi, indi də Ukraynada vəzifəsi var. Türkiyə prezidenti Ərdoğanın da əslən gürcü olması söhbətini oxumuşam. Bu da orda böyük bir dövləti barmağının ucunda fırlatmaqdadır, kimsə “mıqq” eləyə bilmir, eləyəni nəsillikcə dama salır.

Qayıdaq mövzuya, hərçənd, mövzu-zad yoxdur. Keçən ay bir sərəncam oxumuşdum, hələ də gülürəm. Sərəncam İqtisadiyyat Nazirliyinin adının dəyişdirilməsi haqda idi. Demək, 2016-cı ilin yanvarında başqa sərəncamla bu nazirliyin qabaqkı adı - İqtisadiyyat və Sənaye Nazirliyi imiş - dəyişdirilib. Ancaq rəsmi sənədlərdə adı dəyişmək avqustda yada düşüb, indi bütün sərəncam bu cür maddələrdən ibarət idi “Filan qanundakı, fərmandakı ”... və Sənaye" sözləri çıxarılsın". Deyə bilərsiniz, burda gülməli nə var? Deyin. Əslində doğrudan ağlamalıdır, çünki informasiya agentliklərinin də yaydığı o xəbər düz 242 maddədən ibarət idi! Bir sərəncamda 242 dəfə “... və Sənaye” yazan hökumətdən nə gözləyirsiniz?

Məhəllə yolunda tərəvəz satan bir yaşlı qadın var. Şirvan şəhərindən hər dəfə min əziyyətlə məhsul gətirir. Soyuqda, qarda, yağışda, qızmar günün altında küçə ticarətinə məcburdur, çünki nəvələri də daxil, böyük bir ailəni dolandırır. Arada görünmədi. Soruşuram, deyir, problem çıxmışdı, onu həll eləməklə məşğul idim. Sən demə, ərdə olan qızının qaynanası hansısa bankdan kredit alıbmış, bu nənəni də zamin kimi yazdırıbmış. Deyir, neyləyim, qızıma görə keçə bilmədim, zamin durdum. Sonrasını ta özünüz bilirsiniz, çünki millətin çoxu bu saat bankların dollar krediti qandalından qurtula bilmir: “3-4 aydır pensiyamı ala bilmirdim. Öyrəndim ki, krediti verə bilməyiblər, indi bank mənim pensiyamı kredit əvəzinə tuturmuş”. Göysatan nənənin dilənçi payı pensiyasını zamin durduğu üçün çırpışdıran bank sisteminə malik müstəqil dövlətimizə nə arzu edə bilərik? Asteroid düşsün, yoxsa babat meteorit? Bəlkə yer yarılsın, yerə girək?

Ağlımıza gəlməyən proseslərlə qarşılaşırıq. Misal üçün, Eldar Sabiroğlu vaxtilə YAP-ın qurulmasında canfəşanlıq edəndə bu qurduğunun elə onun öz oğluna haqsız yerə 9 il həbs cəzası kəsəcəyini düşünərdimi? Düşünə bilməzdi, çünki bu sistemdə uzaqgörənlik yalnız bir adamın adına biçilmişdi. Qalanları burnunun ucundan uzağı görmürdü. Ona görə biri 11 ildir türmədədir, hələ təzə torba ilə 11 il də “yatmalıdır”. Bir ayrısı türmədə qan qusdu öldü. Üçüncüsünün meyitini minnətlə xaricdən gətirib basdırdılar, indi adı it dəftərində çəkilmir, halbuki eşşək boyda şəhərin şefi qoymuşdular. Dördüncüsünü blokda ağzından güllələdilər, çünki deputatxanada hətərən-pətərən danışmağa girişmişdi. Beşincisi, altıncısı, yeddincisi...

Deyəsən heç yarıyan yoxdur. Görəsən insanlar bu qədər klassik, bəşəri, milyonlarla dəfə təkrarlanan əbədi həqiqəti niyə dərk etməkdə çətinlik çəkirlər: “Özgəyə quyu qazan özü düşər”.

**İndi söz o biri quyu qazanlarındır: ipinizi hazırlamısınızmı barı?**

# Böyük savaşa sayılı günlər qaldı - kritik gəlişmə

**Türkiyənin Suriya ərazisində “Fərat qalxanı” əməliyyatı davam edir. Artıq qardaş ölkənin Suriya tərəfdən İŞİD-lə həmsərhəd bütün əraziləri azad edilib. Türkiyə Silahlı Qüvvələri isə Azad Suriya Ordusu (ASO) ilə birgə uğurlu hərbi əməliyyatlara ara vermək niyyətində deyil.**




# İŞİD üçün gerisayım başladı - Azərbaycan üçün də mühüm qərar

## Türkiyə və ABŞ terror təşkilatının sonuna çıxmağa hazırlaşır, Rusiya isə... tərəddüddədir; qardaş ölkə bölgədə yeni tarix yazır; növbə bir gün Güney Qafqaza, Qarabağa da çatacaq...

**Gözlənildiyi kimi, Türkiyənin siyasi və hərbi rəhbərliyi bununla kifayətlənməyərək, terror təşkilatını yuvasındaca məhv eləmək üçün irəliləməkdə qətiyyətlidir. Bu da o anlama gəlir ki, bölgə artıq ən həlledici və kritik bir dönəmə daxil olmaqdadır. Srağagün NATO baş katibi Yens Stoltenberqin qəfil Türkiyə səfəri də şübhəsiz ki, öncəliklə bununla - proseslərin sürətlənməsi ilə bağlı idi. Rəsmi Ankara təbii ki, hərbi əməliyyatları yüz ölçüb-bir biçməklə, konfliktə cəlb olunmuş xarici güclərin, NATO üzrə müttəfiqlərin maraqlarını nəzərə almaqla aparır.**

***

Anti-İŞİD anlaşması yönündə danışıqlar “G-20”-nin Çin sammitində ABŞ, Türkiyə və Rusiya prezidentləri arasında ikitərəfli müzakirələrdən sonra intensivləşib. Ardınca Londonda toplanan bir neçə ölkə lideri səviyyəsində Suriyada savaşın bitməsi ilə bağlı qərar qəbul edilib. Həmin görüşdən sonra İŞİD-in ”paytaxt" Rakka və İraq şəhəri Mosulun azad edilməsinə dair hazırlanmış planın detalları üzə çıxıb.

Məlumata görə, əməliyyata ABŞ, Türkiyə, Qətər və Səudiyyə Ərəbistanı başda olmaqla, bölgədəki digər ölkələr də qatılacaq. Hücum zamanı Türkiyə və NATO qüvvələri İŞİD mövqelərinə hava zərbələri endirəcək. O da bildirilir ki, əməliyyatla bağlı yekun qərar 13-20 sentyabrda Nyu-Yorkda keçiriləcək BMT Baş Məclisinin sessiyası çərçivəsində veriləcək. Yəni böyük savaşa sayılı günlər qalır.

Ona kimi isə konflikt cəlb olunmuş daha bir böyük dövlətlə - Rusiya ilə anlaşmanın tapılacağı gözlənilir. Çünki rəsmi Moskva Türkiyə və ABŞ-ın müraciətlərinə rəğmən, öz mövqeyini hələ ki, qətiləşdirməyib. Məntiqlə Rusiya da İŞİD-in məhvində maraqlıdırsa, o zaman o da prosesə sanballı töhfə verməli, ən azından, İŞİD-ə qarşı quru əməliyyatlarının effektli olmasına əngəl yaratmamalıdır.

Yeri gəlmişkən, dünən Türkiyə tərəfinin təşəbbüsü ilə Rusiya prezidenti Vladimir Putin və Türkiyə prezidenti Rəcəb Tayyip Ərdoğan arasında telefon danışığı olub. Bu barədə Kremlin rəsmi saytında məlumat verilir. Söhbət zamanı tərəflər Türkiyə-Rusiya münasibətlərinin gələcək inkişafını müzakirə ediblər. Xüsusi diqqət Suriyadakı vəziyyətə yönəldilib. İki prezident Suriya münaqişəsinin nizamlanması prosesində səylərin koordinasiya edilməsi üçün intensiv əlaqələri davam etdirmək barədə razılığa gəliblər.

***

Londonda isə Türkiyə müdafiə naziri Fikri Işıq və onun amerikalı həmkarı Eşton Karter Rakka əməliyyatını müzakirə ediblər. İki nazir Rakkanın geri alınması üçün başladılacaq prosesin mərkəzində yerli qüvvələrin olmasının vacibliyini vurğulayıb. Hər iki nazir əməliyyatın başında məhz yerli qüvvələrin dayanması ilə bağlı anlaşma əldə edib.

Pentaqon başçısı həmçinin Türkiyənin “Fərat qalxanı” əməliyyatını dəstəklədiklərini söyləyib. Karter mətbuata açıqlamasında Mosul və Rakkanın qısa müddətdə İŞİD-dən təmizlənəcəyini də bildirib. Lakin bundan ötrü Rusiyanın da dəstəyinə ehtiyac duyulur.

“Suriya böhranında açar ölkə Rusiyadır. Rusların doğru yönə keçməsi lazımdır”. Bunu da Pentaqon başçısı deyib. O, Rusiyanın Qərbin işlərinə qarışmamalı olduğunu da bildirib: “Biz Rusiyanın timsalında düşmən axtarışında deyilik. Lakin burada yanlışlıq olmasın. Müttəfiqlərimizi və prinsiplərə söykənən beynəlxalq öhdəlikləri qoruyacağıq. Suriyadan gələn xəbərlər dəhşətdir. Bu seçimi edən isə Rusiya idi. Nəticələrə görə Rusiya da məsuliyyət daşıyır”.

***

“İŞİD-lə mübarizə bu mərhələdə çətin olmayacaq. Rusiyanın etirazlarına baxmayaraq, Türkiyə və ABŞ qələbəni öz ayaqlarına yazmaq imkanına malik olacaq və bununla da tarixə düşəcək”. Bu sözləri Axar.az-a açıqlamasında Türkiyənin Suriyada Mosul-Rakka əməliyyatlarına başlaması barədə danışarkən politoloq Qabil Hüseynli deyib.

Sabiq dövlət müşaviri bildirib ki, Türkiyənin İŞİD-ə qarşı Suriyada quru əməliyyatlarına başlaması çox böyük əhəmiyyət kəsb edir: “Düzdür, Ankaranın birinci məqsədi İŞİD-i tamamilə Yaxın Şərqdən silməkdir. Ancaq Türkiyə paralel olaraq kürdlərin dənizdən-dənizə dövlət layihəsini də məhv etməyi qarşısına məqsəd qoyub. Türkiyənin Suriyadakı hərbi əməliyyatları ilə əlaqədar Rusiya və Amerika fərqli fikirlər səsləndirir. Türkiyə, hələ ki Amerikanın dediyinə əməl edərək kürdlərlə vuruşmur. Obama ilə Ərdoğan İŞİD-ə qarşı son mübarizəyədək Amerika və Türkiyənin quru və hərbi hava qüvvələrini birləşdirməsi barədə razılaşıblar. NATO-nun hərbi hava qüvvələri də əməliyyatlarda iştirak edəcək. Amerikanın çox müasir raket silahları artıq Türkiyənin sərhədlərinə gətirilib. Yaxın günlərdə bu ölkənin dəniz piyadaları və eləcə də xüsusi təyinatlı qoşunları Türkiyə ilə birgə əməliyyat planlarını həyata keçirəcək. Amerika və türk generalları Rakkanın alınması üzrə birgə hərbi əməliyyat planı hazırlayırlar. Bu yaxınlarda hər iki dövlətin Rakkaya böyük hücum əməliyyatı gözlənilir”.

**Politoloq Amerikanın bu dəfə İŞİD-i yox etməkdə daha qərarlı göründüyünü bildirib:** “Türkiyənin Əsədə qarşı münasibəti dəyişib, keçid dövrü və dinc siyasi proseslərin həyata keçirilməsi ön plandadır. ABŞ və Rusiya bu planı dəstəkləyir. Ancaq Rusiya nədənsə hərbi əməliyyatlara qatılmaq istəmir. Amerika isə bu dəfə İŞİD-i yox etməkdə daha qərarlı görünür. Mosulun alınmasına da az qalıb. İŞİD sıralarında fərarilik halları artır. Görünür, İŞİD-lə mübarizə bu mərhələdə çətin olmayacaq. Rusiyanın etirazlarına baxmayaraq, Türkiyə və Amerika qələbəni öz ayaqlarına yazmaq imkanına malik olacaq və bununla da tarixə düşəcəklər”.

***

Beləliklə, İŞİD üçün geri sayımın başladığını inamla söyləmək olar. Bu terror təşkilatının axırına çıxılması isə Suriya böhranının həllinin tezləşməsi, dünyanın ən qorxunc terror təhdidindən qurtulması, Avropanın miqrant böhranından qurtulması demək olacaq.

Yaxın Şərq böhranının aradan qaldırılması sövq-təbii digər regionlardakı potensial müharibə və münaqişə ocaqlarının, o cümlədən Güney Qafqazdakı konfliktlərin, Qarabağ münaqişəsinin dinc yolla nizamlanmasına əlverişli zəmin yarada bilər. Ən əsası, bu münaqişələrin də həllində Türkiyə digər qlobal və regional güclərlə birgə öz vazkeçilməz rolunu oynayacaq ki, bu da Azərbaycanın milli maraqlarına tamamilə uyğundur.

**Demək, Azərbaycan da mühüm və tarixi bir dönəmin astanasındadır. Odur ki, rəsmi Bakı bölgə və onun ətrafında gedən prosesləri diqqətlə izləməli, qardaş ölkə ilə çevik, sinxron və uzlaşdırılmış siyasət yürütməyi bacarmalıdır.**

❑ Siyasət şöbəsi

# "The Washington Post" sükutu pozdu; Bakıya qarşı yeni ittihamlar və çağırışlar




**ABŞ-ın "Vaşinqton post" qəzetində Azərbaycan hakimiyyətini ən sərt şəkildə tənqid edən və prezident Obamanı rəsmi Bakıya qarşı "həlledici tədbirlərə" çağıran məqalə dərc olunub. Məqalənin müəllifləri McCain Beynəlxalq Liderlik İnstitununun insan haqları və demokratiya direktorlarından David Kramer və ABŞ-ın Azərbaycandakı keçmiş səfiri, hazırda George Mason Universitetinin professoru olan Riçard Kozlariçdir.**

Azərbaycan iqtidarına qarşı kifayət qədər sərt iddiaların əks olunduğu məqaləyə hələlik rəsmi Bakıdan münasibət bildirilməyib. "Azadlıq" radiosunun məlumatına görə, məqalədə deyilir ki, bu ilin əvvəllərində prezident İlham Əliyev 14 siyasi məhbusu azad edəndə belə görünürdü ki, o, mövqeyini yumşaldıb. Hətta Azərbaycan rəsmilərinin və rejim mediasının anti-Amerika ritorikası da səngimişdi" - Kramer və Kozlariç yazırlar. Lakin bu o vaxtlar idi ki, İlham Əliyev Vaşinqtona prezident Obamanın nüvə təhlükəsizliyi sammitinə yollanmalı idi. "Buna baxmayaraq, aprel ayından hakimiyyətin azadlıqlar üzərinə hücumları intensivləşib", - deyə məqalədə qeyd olunur. Müəlliflərin fikrincə, belə bir məqamda Birləşmiş Ştatlar Azərbaycana qarşı həlledici hərəkətə keçməlidir, "hərçənd Obama administrasiyası əsasən susur".

Məqalədə daha sonra Azərbaycan hökumətinin müxalifət fiqurlarının və vətəndaş cəmiyyəti fəallarının həbslərini davam etdirdiyi bildirilir. "Azərbaycan yazıçısı Əkrəm Əylisli beynəlxalq hava limanında saxlanıb və onun ölkəni tərk etməsinə icazə verilməyib. "Azadlıq" qəzetinin direktoru və AXCP sədrinin köməkçisi Faiq Əmirli ötən ay həbs edilib. Avqust ayında həbs olunanların arasında REAL hərəkatının icraçı katibi Natiq Cəfərli, NİDA vətəndaş hərəkatının fəalı Elgiz Qəhrəman da var" - məqalədə deyilir. Yazıda bu da vurğulanır ki, ölkədə vəziyyət 26 sentyabr referendumundan sonra daha da pisləşə bilər. Müəlliflərə görə, bu referendumun nəticəsi indidən bəllidir.

Məqalədə təklif edilir ki, hazırda pisləşməkdə olan iqtisadiyyatını xilas etmək istəyən Azərbaycan Beynəlxalq Valyuta Fonduna və ya Dünya Bankına yardım üçün müraciət edərsə, ABŞ belə yardımı dəstəkləməməlidir. Kramer və Kauzlarich-in fikrincə, Azərbaycanda bütün siyasi məhbuslar azad edilənədək və Azərbaycan rəsmilərinin və dövlət mediasının anti-Amerika ritorikası dayandırılnadək ABŞ özünün bu ölkədəki səfirini uzunmüddətli məsləhətləşmə üçün geri çağırmalıdır.

Bundan əvvəl də sözügedən mətbu orqan daxil olmaqla, bir sıra Amerika qəzetlərində Azərbaycan hakimiyyətinə qarşı yazılar dərc olunub, hətta ayrı-ayrı ekspertlər Bakıya qarşı sanksiyalara çağırış ediblər. Lakin Amerika rəsmiləri bir qayda olaraq bu kimi iddiaların rəsmi mövqeyə aidiyyətinin olmadığını bildirirlər. ABŞ Konqresində Azərbaycana qarşı sanksiyalar çağırışının qaşılığında isə ABŞ-da Azərbaycanla bağlı siyasət haçalanır. Ümumiləşdirsək, belə qənaətə gələrik: ABŞ-da rəsmi kurs budur ki, Azərbaycanla bağlı səssiz diplomatiya davam etdirilsin, iki dövlət arasında hansısa ixtilaflar olsa belə, bunlar qapalı müzakirələrlə yoluna qoyulsun. Amma bəzi qüvvələr də var ki, onlar sərt siyasətin tərəfdarı olmaqla yanaşı, mövcud problemlərin ictimailəşdirilməsində maraqlıdırlar.





**Fəzail Ağamalı:** "Ümidvaram ki, Vaşinqtonun Azərbaycana qarşı münasibətlərində yeni xoşagəlməz çalarlar yaranmayacaq"
**Elxan Şahinoğlu:** "ABŞ obyektiv olaraq Azərbaycan hakimiyyətinə qarşı sərt tədbirlərdən çəkinir, çünki..."

Qeyd edək ki, bir müddət əvvəl qəzetimizdə "Amerikanın prezident Əliyevə işi düşüb - nüvə başlıqları" sərlövhəli sensasion yazı dərc olunmuşdu. Sözügedən məqalədə Pentaqonun yeni Bakı planından bəhs olunurdu. Bildirilirdi ki, İncirlikdəki nüvə başlıqlarının bir qismi Azərbaycana təklif oluna bilər. "Cənubi Qafqazda bu cür bir ABŞ sistemi olarsa, Gürcüstanın NATO yolu daha da sürətlənəcək və Azərbaycan daha rahat nəfəs ala biləcək", - deyə, məqalədə qeyd olunurdu. Görünən budur ki, ABŞ-ın strateji planlarının reallaşması baxımından Azərbaycanla əlaqələrin qorunub-saxlanması olduqca vacibdir. Bu isə o deməkdir ki, Azərbaycanın regionda əhəmiyyətinin azaldığı barədə iddialar əsassızdır və Vaşinqton bu faktoru nəzərə almaqda davam edir. ABŞ-ın Azərbaycan iqtidarına loyal yanaşmasının səbəblərindən biri kimi bu məsələ önə çəkilir.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** "Yeni Müsavat"a bildirdi ki, Amerika Birləşmiş Ştatlarında Azərbaycanla bağlı hər zaman iki yanaşma olub: "Birinci yanaşma ondan ibarətdir ki, Azərbaycanda demokratiya və insan haqları ilə bağlı mövcud problemlərə rəğmən, rəsmi Bakı ilə sıx əməkdaşlığı davam etmək lazımdır. Bu mövqe Dövlət Departamentində hər zaman müdafiə olunub. Ağ Ev də bu məsləhətlərə qulaq asıb. Çünki Azərbaycanını bölgədəki əhəmiyyətini ən yaxşı Dövlət Departamenti işçiləri bilir və regional təhlükələri doğru ayırd edirlər. İkinci yanaşma isə bundan ibarətdir ki, Azərbaycan hakimiyyətinə qarşı sanksiyalar qəbul edilməlidir və bu yolla rəsmi Bakını siyasətini dəyişdirməyə məcbur etmək lazımdır. Hətta bu qrupa daxil olan şəxslər ABŞ səfirinin Azərbaycanda geri çağrılmasını təklif edirlər. Aydındır ki, rəsmi Bakının atdığı bir çox addım rəsmi Vaşinqtonun xoşuna gəlmir, ancaq buna qarşı sərt mövqe ortaya qoya bilmir. Ən çoxu hansısa dövlət hesabatında rəsmi Bakının addımları tənqid olunur".

**E.Şahinoğluna görə, ancaq rəsmi Vaşinqton tənqidçilərin rəyinə əsasən Azərbaycan hakimiyyətinə qarşı sanksiya tətbiqini də lazım bilmir:** "Çünki bu, baş verərsə, Bakı-Vaşinqton münasibətləri dondurulacaq və tərəfdaşlıq münasibətlərinə son veriləcək. Bu isə başlıca olaraq bölgədə Rusiya və İranın maraqlarına cavab verəcək. Buna görə də Vaşinqton obyektiv olaraq Azərbaycan hakimiyyətinə qarşı sərt tədbirlərdən çəkinir. "Vaşinqton post" qəzetində Azərbaycan hakimiyyətinin tənqidçiləri rəsmi Bakıya qarşı çox sərt tədbirlər təklif edirlər. Mən Vaşinqtonun bu tənqidçilərin təkliflərini nəzərə alacağını zənn etmirəm. Əsas tənqidçilərdən biri Riçard Kozlariçdir. Bu şəxs neçə il ölkəsinin Azərbaycandakı səfiri olub. Səfir kimi o da Azərbaycanda demokratiya və insan haqları sahəsində axsamaların şahidi idi. Buna baxmayaraq, inanmıram ki, o, səfir kimi buna cavab olaraq yazdığı hesabatlarda Vaşinqtona Bakı ilə əlaqələri dondurmağı təklif etsin. İndi isə o, bunun tərsini deyir. Çünki keçmiş səfir artıq heç bir rəsmi vəzifə daşımır, müstəqil fiqurdur. istədiyini deyə bilər". **Politoloq hesab edir ki, Azərbaycan hakimiyyəti də Vaşinqtonla münasibətlərə ciddi yanaşmalıdır**: "Əgər rəsmi Bakı Amerikadakı tənqidçilərini susdurmaq istəyirsə, bunun ən asan yolu səhv addımlardan çəkinməkdir. "Azadlıq" radiosunun qapanması, Natiq Cəfərli, İlqar Məmmədov və digər siyasi və ictimai fəalların həbsi Azərbaycan-ABŞ münasibətlərində gərginlik elementlərini artırır, rəsmi Bakının tənqidçilərinin əlini gücləndirir. Əslində Azərbaycan prezidenti İlham Əliyev Amerika ilə strateji tərəfdaşlığın tərəfdarıdır. İlham Əliyevin sonuncu dəfə Amerikaya səfəri və vitse-prezident Cozef Baydenlə görüşü də tərəflərdə böyük ruh yüksəkliyi yaratmışdı. Bayden həmin görüşdə Azərbaycan torpaqlarının işğalından danışmışdı ki, bu da hamımızın xoşuna gəlmişdi. İlham Əliyev də bu səfərdən razı qayıtmışdı. Ancaq sanki Azərbaycan hakimiyyəti içində kimlərsə Amerika ilə münasibətləri korlamaq üçün var gücləriylə çalışırlar. Onlar bununla yalnız Amerika-Azərbaycan münasibətlərini gərginləşdirmirlər, eləcə də prezidentin xarici siyasətinə zidd gedirlər".

**AVP sədri, deputat Fəzail Ağamalı** ABŞ-da Azərbaycanla bağlı ikili münasibətin olduğunu təsdiqlədi: "Görünən budur ki, ABŞ-ın rəsmi dairələri, daha çox Amerikanın maraqlarına xidmət edən, daha praqmatik olan, Azərbaycanın yerləşdiyi məkanda ciddi rol oynadığını, vacib bir ölkə olduğunu və Cənubi Qafqazın lider ölkəsi kimi dəyərləndirərək, münasibətlərə əhəmiyyət verən, buna uyğun addımlar atan qüvvələr var. Bu baxımdan rəsmi Vaşinqtonun mövqeyi Azərbaycanla münasibətlərin normal inkişafına köklənib və bu istiqamətdə müəyyən problemlər olsa da, nəticə etibarilə bu münasibətlər yüksələn xətlə inkişaf etməkdədir. Əlbəttə, Azərbaycan da buna maraqlıdır. Azərbaycan supergüc olan ABŞ-la münasibətlərin hər zaman normal olmasında öz iradəsini ortaya qoyub. Bu gün ABŞ-la Azərbaycan arasında rəsmi baxımdan münasibətlər normaldır, hər hansı ciddi xarakter daşıyan problem yoxdur. Ola bilsin ki, hətta Vaşinqtonda yüksək ranqlı məmurların da içərisində Azərbaycanı istəməyən, erməni diasporunun təsiri altında erməni lobbisinə çevrilən şəxslər var. Lakin təbii ki, bunlar Vaşinqtonun strateji maraqlarına qarşı açıq şəkildə çıxış edəcək bir iradə sahibi deyillər və bu, mümkün də deyil".

**F.Ağamalı hesab edir ki, anti-Azərbaycan xarakterli qüvvələr rəsmi Vaşinqtondankənar, əsasən konqresmenlər, senatorlar, keçmiş səfirlər arasından çıxır, yaxud bəzi media orqanlarında çalışır:** "Bunlar hər zaman Azərbaycanın əleyhinə olub və bu gün də olmaqdadırlar. Özü də bunların arxasında erməni amili dayanır. Erməni lobbisinin istiqamətləndirdiyi bu insanlar anti-Azərbaycan qüvvələrin içərisində öz fəallıqları ilə seçilirlər. Bu yazıda da, məncə, məhz ermənilərin, Amerikadakı erməni icmasının təsiri altında olan, onların maliyyəsi ilə qidalanan, mayalanan və öz varlıqlarını qoruyub-saxlayan insanlar tərəfindən təşkil olunmuş bir böhtan xarakterli yazıdır. Mən ümidvaram ki, bu yazı rəsmi Vaşinqtonun Azərbaycana qarşı münasibətlərində heç bir yeni xoşagəlməz çalarlar yaratmayacaq. Çünki bu, əslində həm də indiki ağır, beynəlxalq münasibətlərin çox kəskin bir dövründə Vaşinqtonun özünə də sərf etməz".

❑ **E.PAŞASOY**

YENİ MÜSAVAT
N 201 (6522) 10 sentyabr 2016




# Ələtdə Azad Ticarət Zonası yaradılır

## Fikrət Yusifov: "Ölkə ərazisindən keçən tranzit dəhlizlərinin rəqabət qabiliyyəti və səmərəliliyi artır"

**Ələt qəsəbəsində Azad Ticarət Zonasının yaradılmasına yönəlmiş məsləhətçi xidmətlərin göstərilməsinə dair Birləşmiş Ərəb Əmirliklərinin "DP World" şirkəti ilə müqavilə imzalanıb. "DP World" şirkətlər qrupu dünyanın ən böyük konteyner terminallarının operatorlarından olmaqla ilk 10 operator sırasındadır və böyük təcrübəyə malikdir. Şirkətin 40-dan çox ölkədə 70-dən artıq terminalı var.**

Ələt qəsəbəsində Azad Ticarət Zonasının yaradılmasına yönəlmiş məsləhətçi xidmətlərin göstərilməsinə dair imzalanan müqavilə çərçivəsində şirkət tərəfindən xüsusi iqtisadi zonalara dair qanunvericilik təkmilləşdiriləcək, Ələt Azad Ticarət Zonasına dair texniki-iqtisadi əsaslandırma və Baş Plan hazırlanacaq. *(Azərtac)*

Bu barədə iqtisadiyyat naziri Şahin Mustafayev sentyabrın 7-də Bakıda Ələt Azad Ticarət Zonasının yaradılması üçün məsləhətçi xidmətlərin göstərilməsinə dair müqavilənin imzalanması mərasimində bildirib. "Bu işlərin 2017-ci ilin yanvarında yekunlaşdırılması nəzərdə tutulur. Məsləhətçi qismində Birləşmiş Ərəb Əmirlikləri şirkətinin seçilməsi həm də ölkələrimiz arasında siyasi və iqtisadi münasibətlərin yüksək səviyyədə olması ilə bağlıdır. İşlər yanvar ayında başa çatacaq",- deyə nazir qeyd edib.

Ekspertlər musavat.com-a layihənin detallarından danışıblar. Azad ticarət zonasının yaradılması ümumilikdə təqdir edilir. **İqtisadçı-alim Fikrət Yusifov** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılan bu addım yüksək qiymətə layiqdir: "Prezidentin 2007-ci il 18 oktyabr tarixli sərəncamına əsasən, Ələt qəsəbəsinin ərazisində yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin tikintisinə başlanılıb. Liman vasitəsilə 25 milyon ton yük və 1 milyona qədər konteynerin daşınması nəzərdə tutulur. Ölkə ərazisindən keçən tranzit dəhlizlərinin rəqabət qabiliyyəti və səmərəliliyi artdıqca, həmin dəhlizlərə böyük həcmlərdə tranzit yük axınlarını müşahidə edəcəyik. Şübhəsiz ki, bütün bu işlər də əsas hədəf olaraq Azərbaycanın dünya miqyasında nəqliyyat-logistika mərkəzi kimi mövqelərini daha da möhkəmləndirəcək".



**Ekspertin sözlərinə görə, Azərbaycan Avrasiyanın koordinasiya mərkəzinə çevrilməyə indi çox şanslıdır:** "Son on ildən artıq bir vaxt ərzində bütün səviyyələrdən olan infrastruktur layihələrinin icrası, nəticə etibarılə ölkəmizin belə bir mərkəzə çevrilə bilməsinin əsaslarını yaratdı. Bu sahədə kifayət qədər təcrübəsi olan "DP World" şirkətlər qrupunun rəhbərliyinin Bakıya dəvət edilməsi heç də təsadüfi deyil. Bu kompaniya artıq kifayət qədər yetkin bir səviyyədədir. Onun rəhbərinin "Sizin Azərbaycanı Avrasiya koordinasiya mərkəzinə çevirmək üçün zəruri olan yüksək texnologiyalarınız və resurslarınız var. Bizim isə təcrübəmiz var. Bütün bunları birləşdirərək biz vahid güclü kommersiya strukturuna çevrilə bilərik" deməsi mərkəzin gələcəkdə geniş regionda liderlik iddialarının olmasından xəbər verir. Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılan bu addım yüksək qiymətə layiqdir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının istifadəyə verilməsi və orada azad ticarət zonasının yaradılması tək ixracın genişləndirilməsi demək olmayacaq. Bu eyni zamanda Şimal-Cənub, Şərq-Qərb istiqamətində böyük həcmdə olan yüklərin həm dəniz, həm dəmir və həm də avtomobil yolları vasitəsilə daşınması demək olacaq. Böyük həcmdə yüklərin Azərbaycan üzərindən daşınması isə ölkəmizə kifayət qədər xarici valyutanın daxil olmasına təmin edəcək. Bütövlükdə layihənin icrası çoxlu sayda iş yerlərinin açılması, ölkə büdcəsinə isə böyük həcmdə vəsaitlərin daxil olmasına imkan verəcək".

❑ **Röya RƏFİYEVA**

# Ömürlük məhbuslarla bağlı prezidentə müraciət edildi

## Vəkil Elçin Qəmbərov: "İşlərinə ədalətli baxılsa, ömürlük məhbusların 80 faizinin cəzası müddətli həbslə əvəzlənə bilər"

**Sentyabrın 9-da Bakıda ömürlük məhbuslarla bağlı dəyirmi masa keçirilib. Musavat.com xəbər verir ki, Qarabağ Azadlıq Təşkilatının və Ömürlük Məhbusların Hüquqlarını Müdafiə Komitəsinin təşəbbüsü ilə "Ömürlük həbs cəzası və insan haqları" mövzusunda Dəyirmi Masada hüquq müdafiəçiləri, hüquqşünaslar, QHT nümayəndələri, ömürlük məhbusların yaxınları iştirak ediblər.**






Ömürlük Məhbusların Hüquqlarını Müdafiə Komitəsinin sədri Akif Nağı çıxış edərək bildirib ki, üç aydır ki, bu məsələ gündəmə gətirilib: "Səbəb məsələnin ictimailəşməsi, diqqətdən kənarda qalmamasıdır. Ömürlük məhbusların böyük bir qisminə törətdikləri cinayətə uyğun olmayan ağır cəza verilib. Həmçinin ömürlük həbs cəzası insan üçün çox ağır bir cəzadır. Müddətli həbs cəzası ilə əvəz olunmasını təklif edirik. Biz bu gün dövlət başçısı İlham Əliyevə müraciət ünvanlayacağıq. Hesab edirik ki, bu, çox humanist addım olar, ömürlük həbs cəzası müddətli cəza ilə əvəzlənməlidir. Bu, vacibdir. Aparıcı ölkələr də bu cür edirlər".

**A.Nağı qeyd edib ki, güllələnmə cəzası ömürlük həbslə əvəzlənən şəxslərin əksəriyyətinin vəziyyəti ağırdır:** "Hazırda 73 nəfər ömürlük həbsdə olan məhbus var. Niyə qanunun verdiyi humanist addımdan hakimlər istifadə edərək 25 il sonra onların işinə yenidən baxıb müsbət qərar vermir?".

**Vəkil Elçin Qəmbərov** isə qeyd edib ki, işlərinə ədalətli baxılsa, ömürlük məhbusların 80 faizinin cəzası müddətli həbslə əvəzlənə bilər.

**A.Nağı bildirib ki, dövlətin və cəmiyyətin ömürlük məhbuslara münasibətini dəyişmək lazımdır:** "Onların üstündən xətt çəkmək olmaz".

Ömürlük məhbus anası Müslümat Rzaxanova isə qeyd edib ki, on illər boyu məhbus ailələri çox əziyyət çəkiblər: "Ailəsində xəstəsi, əlili, qocası olanlar var. Dövlət başçısından bunu da nəzərə almağı xahiş edirik".

Vəkil Nəsimi İsayev isə deyib ki, məhkəmələr cinayət işlərinə yenidən baxaraq ədalətli qərarlar çıxarmalıdır: "Bu, insan haqları baxımından da vacibdir". Digər çıxış edənlər də ömürlük məhbusların vəziyyətinin ağırlığına diqqət çəkərək dövlət başçısından ədalət istəyiblər.

Həmçinin Ömürlük Məhbusların Hüquqlarını Müdafiə Komitəsi adından dövlət başçısı İlham Əliyevə müraciət də göndərilib. Müraciətdə ömürlük cəzanın 15-20 illik müddətlə əvəz olunmasını xahiş edilib.

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

## Velosiped zavodunun bağlanması xəbəri təkzib olundu

### "Zavod fəaliyyətini dayandırmayıb, qismən fəaliyyət göstərir"



**İsmayıllıda ölkə başçısının açılışında iştirak etdiyi "İsma Bikes" velosiped zavodunun fəaliyyətinin dayandırılması ilə bağlı məlumatlar yayılıb. Yayılan məlumatlarda, açılışdan sonra zavodun heç bir fəaliyyət göstərmədiyi bildirilib.**

Məsələ ilə bağlı İsmayıllı rayon İcra Hakimiyyəti ilə əlaqə saxladıq. Rayon icra hakimiyyətindən "Yeni Müsavat"a bildirildi ki, yayılan məlumatlar tamamilə əsassızdır. İcra hakimiyyətindən o da bildirildi ki, zavod hazırda da fəaliyyətini davam etdirir: "Hər hansı bir fasilə varsa, bu onların daxili işləri ilə bağlı ola bilər. Lakin ümumilikdə, zavodun fəaliyyətinin tam dayandırılması mümkün deyil".

**"İsma Bikes" Velosiped Zavodunun istehsalat müdiri Elnur Əliyev** də qaynarinfo.az saytına bildirib ki, yayılan məlumatlar doğru deyil: "Zavod fəaliyyətini dayandırmayıb, qismən fəaliyyət göstərir. Eyni zamanda işə götürülən yeni işçilər Bolqarıstanda velosiped zavodunda kurs keçirlər.

Zavodun tam fəaliyyətə düşməməsinin əsas səbəbi, yeni velosiped növlərinin artmasıdır. Əvvəl 5 növ velosiped istehsal etməyi planlaşdırmışdıq, amma sonradan növlərin sayı artdı. Və yeni növ velosipedlər üçün götürülən işçilər də xaricə kurs keçməyə göndərilib.

Hazırda isə yalnız öncədən nəzərdə tutulmuş 5 növ velosiped istehsal olunur. Yaxın 15-20 gün ərzində isə tam fəaliyyət göstərəcəyik".

Qeyd edək ki, tikintisinə 2014-cü ildə başlanan İsmayıllı Velosiped Zavodu avqust ayından etibarən fəaliyyətinə start verib. Açıqlamalara görə, ərazisi 8 hektardan ibarət olan zavodun tikintisi və avadanlıqların quraşdırılmasına 7 milyon manat yatırılıb. İlkin mərhələdə zavodda uşaq velosipedindən tutmuş, ən yüksək səviyyəli idman velosipedlərinə qədər 5 çeşiddə velosiped istehsal olacağı bildirilib. Həmçinin qeyd olunub ki, gələcək dövrlərdə velosipedlərin çeşidləri artırılacaq. Zavodda ildə 30 min velosiped buraxılması nəzərdə tutulub. Verilən məlumata görə, burada velosipedlərlə yanaşı, əlil arabaları və digər xəstəxana avadanlıqlarının da istehsalı planlaşdırılır. Zavodun ərazisində idman yarışlarının keçirilməsi üçün yarış treki də tikilib.

❑ **Əli RAİS**

**Sentyabr ayı girəndən Bakı yollarındakı ənənəvi tıxac da özünü göstərməyə başlayıb. Yay ayları boyunca hökm sürən nisbi sakitlik artıq xaosla əvəzlənib. Yaxın günlərdə yeni dərs ilinin başlanması ilə bağlı durum daha da gərginləşəcək.**

# "Radarlardan şikayət edənlərin əksəri fikri yolda olmayanlardır"

## Kamran Əliyev: "Bəzən sürücülər yolboyu yanında oturan adamla bütün vaxtını problemlərini müzakirəsinə həsr edir"

**Dövlət Yol Polisi İdarəsinin mətbuat xidmətinin rəhbəri Kamran Əliyev** "Yeni Müsavat"a açıqlamasında son durumla bağlı sualları cavablandırdı. Müsahibimiz öncə 15 sentyabr ərəfəsi görülən işlərdən danışdı.

- Yeni dərs ilinin başlanması ilə bağlı "Diqqət, uşaqlar!" adı altında təhlükəsizlik ayı keçirilir. Tədbirə sentyabrın 10-dan start veriləcək. Bu müddət ərzində Daxili İşlər Nazirliyi tərəfindən göstəriş verilib ki, məktəbyani ərazilərdə hərəkətin təhlükəsizliyinin təmin olunması üçün yollara, yol ayrıclarına, səkilərə bir daha diqqət yetirilsin. Çatışmayan nişanlar bərpa olunsun. Nişanlama xətləri yenidən çəkilsin. Bundan başqa, yeni dərs ilinin başlandığı gün, yəni, sentyabrın 15-də yol polisinin bütün şəxsi heyəti səfərbər olunacaq. Həm yollarda nəqliyyatın tənzimlənməsinə, eləcə də 1-ci sinfə gedən uşaqlarla bağlı açıq dərslərin keçirilməsində də iştirak edəcəklər. Ümumilikdə təhlükəsizliyin təmin olunması ilə bağlı polisin digər xidmətlərindən də əməkdaşlar cəlb olunacaq. Düşünmürük ki, elə bir ciddi problem olar. Amma sürücülərimiz, xüsusən də övladını 1-ci sinfə yola salanlar nəzərə almalıdılar ki, onların uşaqları 1-2 dəqiqə yola salmaq məqsədilə maşını yolun hərəkət hissəsində saxlaması böyük tıxaclara gətirib çıxarır. Yeni dərs ili başlamazdan bir neçə gün əvvəl də kütləvi müraciətlər edirik ki, sürücülər bu məsələni diqqətə alsınlar. Çünki istər tıxacların yaranması , istər xaotikliyin meydana gəlməsi, sözsüz ki, nəqliyyat vasitələrinin düzgün park edilməməsi səbəbindən baş verir. Sürücülər təkcə özlərini yox, bütün hərəkət iştirakçılarını nəzərə alsınlar ki, üç-dörd zolağı olan yollarda yolun üç zolağı da işğal edilirsə, orda bir zolaqda maşınların hərəkətini təmin etmək mümkün olmur. Bakıda orta tədris müəssisələrinin sayı yüzlərlədir. Görün ki, qaydalara əməl olunmasa hansı vəziyyət yarana bilər. Ona görə də KİV nümayəndəsi olaraq bir daha oxucularınıza da aşılayın ki, dediyimiz məsələlərdə diqqətli olsunlar. Mümkün qədər maşını park yerlərində, park üçün mümkün olan məkanlarda saxlayın. Məktəbdən 100-200, lap 500 metr uzaq olsun, o məsafəni piyada da getmək olar. Təki nəqliyyatın hərəkətində problem yaranmasın.

### "Dayanacaq məktəbdən 100-200, lap 500 metr uzaq olsun, o məsafəni piyada da getmək olar"

*- Hazırda paytaxt yollarının bəzilərində təmir gedir. Sanki yay boyu istirahət edib, gərgin qrafik başlayan ərəfədə təmirə başlayıblar və bununla da onsuz da gərgin olan Bakı yollarını gərginləşdirirlər...*

- Orada müvafiq qurumlar tərəfindən aparılan təmir işləri məktəbin başlanmasına qədər yekunlaşdırılacaq. Sözsüz ki, yeni dərs ilinin başlanması zamanı orta və ali məktəblərə müəllim, şagird axını çox güclü olacaq. Ona görə də əsaslı tikinti işlərini demirəm, amma cari yol təmir işləri ayın 15-ə qədər təhvil verməlidilər.

*- Son vaxtlar xüsusən sürət həddinə görə radar cərimələrinin sayının artması sürücülərin narazılığına səbəb olur. Bəzən sürət həddinin düzgün müəyyənləşdirilməməsi, olduqca yüksək sürət həddindən cəmi 50 metr məsafədə aşağı sürətə keçid sürücülərdə problem yaradır, onlar sürəti tənzimləyə bilmirlər. Bəzən sürət həddinin 10 km/saat aşılması belə 10 AZN-lik cərimə olaraq qayıdır sürücülərə. Uzaq səfərə çıxanlar bəzən 80-90 AZN-lik yol cəriməsi ilə geri qayıdırlar...*

- Sürət həddinin müəyyən ərazilərdə azaldılması hərəkət təhlükəsizliyinin təmin olunması ilə bağlı olan bir haldır. Əgər sürət həddi daha yüksək olan ərazidə bir qədər irəlidə sürət həddi aşağı endirilirsə, bu, ya piyada keçidi, ya yaxınlıqda yaşayış məntəqəsinin olması ilə bağlı ola bilər. Sürücülər də o nişana diqqət yetirməlidilər. Dediyiniz kateqoriyalı, yəni radarlardan şikayət edən sürücülər o sürücülərdir ki, uzaq məsafəli yola çıxırlar, amma fikirləri yolda olmur. Yəni, fikri, diqqəti yolda olan sürücü bütün yol nişanlarında, yol xətlərində ətrafında cərəyan edən bütün hadisələrə diqqət yetirə bilir. Və o nişanın tələbinə də vaxtında əməl edəndə nə radara düşürsən, nə də cərimə alırsan. Çox təəssüf olsun ki, bəzən sürücülər yolboyu yanında oturan adamla bütün vaxtını problemlərini müzakirəsinə həsr edir. Uzaq yolda başı söhbətə qarışır, nə yol xəttinə, nə yol nişanına diqqət edir. Sürətdən şikayətlənənlərə gəlincə, bundan sürət həddinə riayət etməyənlər şikayətlənə bilər. Əgər yolda sürət həddi 90 km müəyyənləşibsə, həmin sürət həddində idarə etmək lazımdır. Həmin şəxslər bilir ki, sürəti 90 km müəyyənləşən yolda sürət həddini 10 km aşıb, 100 və ya 110-la sürərsə, avtomatik olaraq cərimələnəcək.



*- Cərimə məktubları ilə bağlı da müəyyən problemlər var. Məsələn, evinə cərimə məktubu gələn vətəndaş bunu dərhal ödəmək üçün ödəmə məntəqələrinə yaxınlaşanda məlum olur ki, cərimə hələ hesaba oturmayıb. Vaxtından gec hesaba oturan cərimə isə daha sonradan sürücüyə faizli ödəmə olaraq geri qayıdır. Bunun normal tənzimlənməsi ilə bağlı problem nədədir?*

- O şikayətlərin əsası yoxdur. Əgər vətəndaşın xəbəri yoxdursa, cərimə sanksiyası heç bir hesaba oturmayıbsa, DİN-in cərimə və cərimə ballarının öyrənilməsi üçün yaradılan saytlarda görünməsə, onun üzərinə faiz gələ bilməz. Bu, hansı hallarda mümkündür? Əgər həmin şəxs qeydiyyatda olduğu ünvanda yaşamırsa, ona o sənədi necə çatdırmaq olar? Ona o rəsmi sənəd çatdırıla bilmədiyinə görə o qərar çıxarılmır. Onu tapmaq mümkün olmadığına görə istifadə etdiyi nəqliyyat vasitəsi saxlanılması barədə qərar qəbul olunur. Həmin sənəd evinə çatdırıla bilmədiyindən yolda saxlanılır və sənəd ona çatdırılır. Bundan 10 gün müddətində isə vaxt verilir ki, o, vəsatət qaldırılsın. 10 gün boyunca vəsatət qaldırmasa ona verilən sənəd qərara çevrilir. Onu da 1 ay müddətində ödəmirsə, üstünə faiz gəlir. Bu, mümkün olan şey deyil ki, sürücüyə cərimə ilə bağlı sənəd çatmasın, amma üzərinə faiz gəlsin. Bu sənəd ona rəsmi şəkildə sənəd təqdim olunur.

❑ **Sevinc TELMANQIZI**

# "Siz kimsiniz ki, parkı işğal edirsiniz?"

## Fəzail İbrahimli: "Maddi maraqlarınız naminə niyə insanların əsəbləri ilə oynayır, xəyanət edirsiniz bu dövlətə?"

**"Bizdə hər kəs ancaq özünü düşünür, kimsə başqasının yadına belə düşmür". Gununsesi.info xəbər verir ki, bunu Milli Məclisin (MM) Regional məsələlər komitəsinin parlamentin qarşıdan gələn 2016-cı il payız sessiyası ilə bağlı sentyabrın 9-da keçirilən ilk iclasında sözügedən komitənin sədri Arif Rəhimzadə deyib. Komitə sədri bildirib ki, Azərbaycanda insanlar arasında ictimai qınaq yox dərəcəsindədir. "Kim nə edir-etsin, ona fikir verən, tənqid edən yoxdur. Hamı sanki susmağa üstünlük verir. Bu, heç də yaxşı hal deyil. Bunu da təəssüf hissi ilə demək istəyirəm ki, bu məsələnin kökündə millətimizin hələ də istənilən səviyyədə inkişaf etməməsi dayanır..." - deyə, A. Rəhimzadə sözlərinə əlavə edib.**



Fəzail İbrahimli

"Yasamal parkı bir il öncə istifadəyə verilib və o, ölkə prezidenti İlham Əliyevin yasamallılara, Bakı sakinlərinə hədiyyəsidir. Hədiyyəyə xəyanət etmək olmaz. Amma təəssüflər olsun ki, həmin hədiyyəyə öz şəxsi maraqlarını düşünənlər tərəfindən xəyanət var". Bunu isə **komitənin üzvü, professor Fəzail İbrahimli** deyib. Deputat ardınca işbazları kəskin tənqid edib. "Bir il öncə Yasamalda gözəl bir park salındı. Ancaq heç üstündən bir il keçməmiş park tanınmaz hala gətirildi. Yasamal parkı belə demək mümkünsə, bu gün işğal olunub, biznes-kluba çevrilib. Bu, xəyanətdir. Bunu da bütün məsuliyyətimlə deyirəm"- deyən millət vəkilinin sözlərinə görə, parkda insanların dincəlməsinə imkan verilmir, gəliş-gedişə, hərəkətə maneçilklər törədilir. O, qeyd edib ki, parkın qarşısında yüzlərlə velosiped qoyulub ki, 5 dəqiqəsi 2 manatadır:

"Kimlərsə parkı öz şəxsi mallarına, mülklərinə çeviriblər, yaxşıca pul qazanırlar. Anacaq ora velosiped sürmək yeri, məkanı deyil. Velosipedi də elə sürürlər ki, az qala adamların üstünə çıxalar. Bu, yolverilməzdir. Həm də bildiyiniz kimi, illərdir Bakıda it saxlayan ailələr, vətəndaşlar var. İndi həmin park sanki itlərin "görüş klubu"na çevrilib, bütün itlər orada görüşürlər, insanlar da qorxularından bilmirlər nə etsinlər. Axı, siz kimsiniz ki, parkı işğal edirsiniz, biznes-likuba çevirirsiniz? Bu haqqı kim sizə verib? Maddi maraqlarınız naminə niyə insanların əsəbləri ilə oynayır, xəyanət edirsiniz bu dövlətə? Hesab edirəm ki, artıq buna bir dur deyən lazımdır, bu özbaşınalıq aradan qaldırılmalıdır"-deyə, F. İbrahimli daha sonra sözlərinə əlavə edib.

❑ **Cavid TURAN**

# Sərkisyan növbəti oyuncağını dəyişdi - Ovik Abramyan kimlər üçün qurban edildi...

## Erməni hüquq müdafiəçisi Artur Sakunts: "Fahişələri dəyişməklə fahişəxana dəyişməz, onun gəlirləri olduğu kimi qalacaq"

**Musavat.com-un təxminən bir ay öncə verdiyi ehtimal özünü doğrultdu. Ermənistan baş naziri Ovik Abramyan sentyabr ayının 8-də istefasını açıqladı.**

Abramyan özünün vida nitqində erməni cəmiyyətinin hələ də qütbləşmə vəziyyətində qaldığını söyləyib. Ovik Abramyan bu səbəbdən hökumətin öz fəaliyyətinə davam edə bilməyəcəyini vurğulayaraq prezidentə yeni hökuməti formalaşdırmağa imkan verilməsi üçün istefaya getdiyini bəyan edib.

Xatırladaq ki, Ovik Abramyan 2014-cü ilin aprelin 13-dən hökumətə rəhbərlik edir.

O bu vəzifədə hazırda Avrasiya İqtisadi komissiyasının sədri vəzifəsini həyata keçirən Tiqran Sərkisyanı əvəz edib.

Abramyanın vida çıxışında maraqlı məqamlar da var.

Eks-baş nazir rəhbərlik etdiyi hökumətin korrupsiya ilə mübarizə sahəsində önəmli addımlar atdığını qeyd edib.

Onun sözlərinə görə hökumət məmurların əsassız surətdə varlanmasına qarşı bir sıra əlavə tədbirlər hazırlayıbmış.

**Abramyan bu planların içərisində Anti-korrupsiya Şurasının yaradıldığını xüsusilə qeyd edib.**

Onu qeyd edək ki, Abramyan hökumətə rəhbərlik etdiyi dövrdə yaradılan anti-korrupsiya şurasına da şəxsən özü rəhbərlik edirdi.

Abramyanın hökumətə rəhbərlik etdiyi dövrdə yadda qalan digər demarşı avqust ayında hökumət iclasında Ermənistanın Avropa İnsan Hüquqları Məhkəməsindən çıxan qərarlara görə ödədiyi cərimələrin araşdırılması barədə tapşırığı olmuşdu. Həmin vaxt Abramyan Ermənistanı cərimələtdirən qərarların hansı hakim və məmurların günahları ucbatından çıxarılmasını müəyyən etməyi tapşırmışdı.


Ovik Abramyan


Artur Sakunts

Ermənistan mətbuatı isə Abramyanın bu kimi tədbirləri Ermənistanda tüğyan edən iqtisadi monopoliya və məmur özbaşınalığının qarşısını alınması üçün deyil, korrupsiya tortundan daha çox pay əldə etmək üçün həyata keçirdiyini vurğulayırdı.

Hər halda görünür, Abramyanın "çaşması" Ermənistanda nüfuzlu dairələrin hərəkətə keçməsinə səbəb olub.

Qeyd edək ki, məlum iclasdan sonra Ermənistan Milli Statistika komitəsi ölkə iqtisadiyyatının geriyə getməsi barədə hesabat xarakterli məruzəsini dərc etdi. Bundan sonra artıq heç kimdə bunun baş nazirə göstərilən qapı olduğuna dair şübhə yeri qalmadı.

Ümumiyyətlə Abramyan təyin olunduğu gündən bəxti üzünə gülməyib.

**Onun hökuməti üçün ilk ciddi sınaq İrəvanda 2015-ci ilin yayında elektrik enerjisinin tariflərinin artırılması ilə bağlı hökumətin açıqladığı plan zamanı yarandı. Həmin vaxt elektrik enerjisinin qiymətlərini artırılmasına etiraz edən İrəvan əhalisinin tələbləri qarşısında hökumət geri çəkilməyə məcbur olmuşdu.**

2016-cı ilin aprel ayında gedən döyüşlər zamanı Azərbaycan ordusunun cəmi 2 gündə qazandığı uğurlar Abramyan hökumətinin nüfuzuna daha böyük zərbə endirdi.

Bunun arxasınca isə iyul ayında baş verən "Sasna tsrer" qiyamı Abramyanın yerlərdə sürünən nüfuzunu dibə vurdu.

Əlbəttə ki, Ermənistanda mövcud bərbad durumun məsuliyyəti ilk növbədə Serj Sərkisyanın üzərindədir. Ermənistanda məmur oliqarxiyasının və korrupsiyanın da başında duran Sərkisyandan başqa birisi deyil. Lakin siyasi müşahidəçilərin rəyinə görə Sərkisyana bütün bu olub bitənlərdən sonra qurbanlıq qoyun lazım idi. Bunun üçün də ağla gələn ilk namizəd Abramyandan başqası ola bilməzdi.

Ovik Abramyanın "Avropa İnsan hüquqları məhkəmə qərarlarının araşdırılması", "anti-korrupsiya" kimi çıxışları qurbanın boğazı kəsilmədən öncə son çırpıntıları kimi qiymətləndirilib.

Ermənistanda baş nazirin gözlənilən istefası ilə bağlı reaksiyalar özünü çox gözlətməyib.

**Müxalif kəsim Abramyanın guya vəd etdiyi heç bir proqramı icra etmədiyini bildirir.**

Ermənistanın hüquq müdafiəçilərindən Artur Sakunts 1in.am saytına verdiyi müsahibədə Ovik Abramyanın istefası ilə dəyişən bir şey olmayacağını bildirib.

"Fahişələri dəyişməklə fahişəxana dəyişməz. Onun gəlirləri olduğu kimi qalacaq", deyə Sakunts Ermənistandakı siyasi sistemi belə təsvir edib.

Politoloq Akop Badalyanın fikrincə isə Ovik Abramyan heç bir işlə yadda qalmayan, texniki baş nazir olub: "Əhalinin ümumi narazılığı fonunda bu cür kadr dəyişikliklərinin həyata keçirilməsi Ermənistan kimi ölkələrdə normal sayılmalıdır", deyə, Badalyan mətbuata bildirib.

**Polittexnoloq Karen Koçaryanın fikrincə isə Abramyanı istefaya gətirən iki səbəb var: "Bunlardan birincisi iqtisadi tənəzzül və bununla bağlı yaranan sosial narazılıq, ikincisi isə bu narazılığın siyasi əksi sayılan "Sasna Tsrer" qiyamıdır", deyə, o iddia edib:**

- "Hökumət sədrini və üzvlərini Ermənistanın hakim Respublika partiyası seçdiyi üçün çətin anlarda baş nazirlər həmişə qurbanlıq keçi kimi qabağa verilib"....

Ermənistan konstitusiyasına görə prezident yeni baş nazirin adını hökumətin istefasından 10 gün sonra açıqlamalıdır.

20 gün ərzində isə prezident yeni hökumətin tərkibini təsdiqləmək üçün parlamentə təqdimat verir.

Əvvəllər də xəbər verdiyimiz kimi, Abramyanın yerinə gələcək isim artıq bəllidi. Bu Rusiyanın "Qazprommejregionqaz" şirkətinin baş direktorunu müavini, İrəvanın keçmiş meri Karen Karapetyandır.

Hər halda Abramyanın istefası və bunun gətirəcəyi siyasi nəticələrin qonşuda gündəmi uzun müddətə həbs edəcəyi aydındır.

**Musavat.com Ermənistanın siyasi gündəmini diqqətdə saxlamağı davam etdirəcək.**

❑ **Vaqif HÜSEYN**

# Klinton səhvini dünyaya bəyan etdi - "İraq müharibəsi yanlış idi"

## ABŞ prezidentliyinə xanım namizədin fikirlərinin pərdəarxası məqamları; ekspert: "İndidən etiraf edir ki..."

**ABŞ-ın sabiq dövlət katibi, prezidentliyə namizəd Hillari Klinton İraqda hərbi əməliyyatların keçirilməsinə dəstək verdiyi üçün peşman olduğunu bildirib. APA-nın TASS agentliyinə istinadən verdiyi xəbərə görə, o, bu barədə MSNBC telekanalının efirində deyib.**

"Prezident Corc Buşu dəstəkləyərək İraqda müharibənin lehinə səs verəndə səhv etmişəm. İraqda müharibəyə başlamaq səhv qərar idi. İnsan ən çox öz səhvlərindən öyrənə bilər. Biz bunun necə baş verdiyini dərk etməliyik ki, gələcəkdə belə hallar baş verməsin ", - deyə Klinton qeyd edib.

İki ay sonra Amerika prezidenti olmağa ən şanslı namizəd sayılan xanım Klintonun bu açıqlaması dünya gündəminə oturub. Ekspertlər hesab edir ki, bu, sırf seçkilərə yönəlik bir addımdır. Çünki ABŞ daxilində İraq əməliyyatlarının yanlış qərar olduğunu deyənlər artır. Klintonun rəqibi Donald Tramp isə bundan istifadə eləməyə çalışır.

Seçki ərəfəsini yaşayan ABŞ-da təkcə İraqla bağlı müzakirələr getmir. Artıq 2011-ci ildə "Ərəb baharı"nın təsiri ilə bir sıra ölkələrdə baş verən üsyanlara Amerikanın dəstək verməsi də ciddi şəkildə tənqid olunur. Səbəb kimi həmin ölkələrin bugünkü acınacaqlı durumu göstərilir. ABŞ-dan əlavə, digər Qərb ölkələri daxilində də analoji fikirlər aparıcı yer tutmağa başlayıb.

**Politoloq Elxan Şahinoğlu** isə hesab edir ki, Amerika 2000-ci ildən etibarın xarici siyasətdə səhvləri ard-arda edib: "2001-ci ilin 11 sentyabrında terrorçuların Amerikaya məlum hücumundan sonra o zamankı prezident Corc Buş əsəbi halda sərt qərarlar verdi. Əvvəlcə Bin Ladeni tələb etdi, alınmayanda Əfqanıstanla müharibəyə başladı. İkinci səhv qərar da İraq oldu. Yalandan guya Səddam Hüseynin əlində nüvə silahı var deyə, onun üzərinə hücuma keçdilər. Qısa müddətdə Səddam Hüseyni məhv etdilər, yerində nə qazandılar? O, diktator olsa da, ən azından İraqın ərazi bütövlüyü var idi. Pis-yaxşı əhali normal yaşayırdı. Terrorizm İraqda ümumiyyətlə yox idi. İndi bunların hamısı İraqda var, ölkə üç yerə parçalanıb, yüz minlərlə insan qırılıb. Ölkənin ərazi bütövlüyünün necə təmin olunacağı bilinmir. Barak Obama hakimiyyətə gələndən sonra dedi ki, diqqəti Əfqanıstan üzərində cəmləşdirib, qoşunları İraqdan çıxaracam. Bu, daha təhlükəli oldu. Çünki İŞİD kimi təhlükəli terror qruplaşması meydana çıxdı. Bu terror qruplaşmasının aparıcı fiqurları isə Səddam Hüseyn ordusunun zabitləridir. İşsiz qaldıqlarına görə onu yaratdılar. Liviyada da ABŞ böyük səhvə yol verdi. Bunu Obama açıq şəkildə etiraf etdi. Qəddafi də Səddam Hüseyn kimi diktator idi, amma əhalinin yaşayışına böyük diqqət ayırırdı. Liviyanın ərazi bütövlüyü var idi. Amerikanın xarici siyasətindəki bu cür yanlışlıqlardan sonra bu dövlətin siyasətinə inamım azaldı. Bütün dünyada da belədir. Bu hadisələr baş verən zaman dövlət katibi olan şəxs indi prezidentliyə iddiaçı şəxsdir. Klintonun səhvini etiraf etməsi nəyi dəyişəcək? Öldürülən minlərlə insanı geri qaytarmaq mümkün olmayacaq. İnanmıram ki, yaxın zamanlarda İraqın ərazi bütövlüyü yenidən təmin olunsun. Böyük dövlətlər DAİŞ-i necə aradan qaldırmaq üzərində baş sındırırlar. Bu da Amerikanın siyasətinin yaratdığı bəladır. Trampın mövqeyi son günlərdə möhkəmlənib. Əgər mart ayında Klinton reytinqdə öndə idisə, indi əksi baş verir. Çünki Klintonun etiraf etdiyi səhvləri Tramp əvvəlcədən deyirdi. Son çıxışında maraqlı bir nüans baş verdi. Jurnalist Putinin etdiyi səhvlərlə bağlı Trampa sual verdi. O, isə cavabında bildirdi ki, Obama bəyəm Putindən az səhv edib, yaxud ondan qabaqkı prezidentlər. Yaxın günlərdə Trampla onun arasında teledebatlar başlayacaq. Tramp çox hazırlıqlı, nitq qabiliyyəti yüksək olan bir siyasətçiyə çevrilib - bəzi fikirlərini bəyənməsək belə. İraq məsələsində Klintonu teledebatda mütləq vuracaq. Ona görə də Klinton indidən səhvini etiraf edir ki, teledebatda pis vəziyyətə düşməsin".



**Politoloq "Ərəb baharı" ilə bağlı səslənən etiraflara da toxundu:** "Son 10 ildə iki cərəyanı müşahidə etdik: keçmiş sovet ölkələrində "rəngli inqilablar" və ərəb ölkələrindəki "Ərəb baharı". "Rəngli inqilablar"ın uğurla başa çatdığını da söyləmək mümkün deyil. Doğrudur, Gürcüstanda hakimiyyət dəyişikliyi olub, demokratik ənənələr formalaşıb. Amma Gürcüstan Cənubi Osetiya və Abxaziyanı itirdi. Ukraynada da eyni proseslər getdi. Eyni ilə "Ərəb baharı" baş verən ölkələr bu aqibətlə üzləşdi. Həmin ölkələr diktatorlardan qurtuldu, amma demokratiya formalaşmadı. Əksinə, oralarda terror tüğyan etdi, ölkələr tar-mar oldular. Yıxmaq asandır, onu qurmaq isə - çətin. Amerika yıxmağı yaxşı bacardı, amma qurmağı bacarmadı. Bunu edə bilmədiyi üçün də belə hadisələr baş verdi".

❑ **Cavanşir ABBASLI**



# "Qarabağ klanı" Ermənistanda revanşa hazırlaşır - düşmən ölkə qarışa bilər

## Azərbaycanlı ekspertlər düşmən ölkədəki hakimiyyət böhranını şərh edirlər; "Növbəti dəfə müharibə başlasa KTMT Ermənistanı xilas edən deyil"; "Moskva və Qərb artıq təzyiqlərini artırır və İrəvandan münaqişə ilə bağlı konkret qərarlar gözləyir"

**İşğalçı Ermənistanda hakimiyyət böhranı yaşanmaqadır. Aprel döyüşlərindən sonra daxildə gərginləşən münasibətlər, prezident Serj Sərkisyanın dayaqlarının zəifləməsi, həmçinin mərkəzdənqaçma meyllərinin güclənməsi düşmən ölkədə qarşıdurma mühitini gücləndirib.**

**Virtualaz.org ötən gün İrəvanın mərkəzində müxalifətin növbəti dəfə mitinqə toplaşdığı xəbərini yayıb.** Məlumata görə, aksiyaya hazırlaşan təkcə müxalifət deyil. Belə görünür ki, işğalçı ölkə yeni qarşıdurmalara hamilədir. Ancaq reallıq bundan ibarətdir ki, hərbi uğursuzluğa düçar olmaqla Qarabağ danışıqlarında mövqelərini itirmiş Sərksisyan hakimiyyətinin ömrünü uzatmaq və prezidentlik müddətini başa çatdırmaqdan ötrü qarşıdurmalardan maksimum yararlanmağa çalışır. Bir müddət öncə polis alayının binasını yarım aydan çox müddətdə zəbt etmiş silahlı qruplaşmalar da faktiki olaraq Sərkisyanın "əlinə işlədi". Qarabağda cinayətlər törətmiş silahlı dəstə üzvlərinin güzəştlərə qarşı çıxması faktından erməni prezident çox hiyləgərcəsinə istifadə etdi və güzəştli sülh mesajı verən Rusiya prezidentinin hüzuruna məhz həmin hadisələrdən sonra gedəsi oldu.

**Hazırda Sərkisyan Ermənistan hökumətində dəyişikliklər etməklə də özünü xilas etməyə, "daxildəki gərginliklər" bəhanəsi ilə danışıqların müddətini uzatmağa çalışır.** Vyana və Sankt-Peterburq görüşlərindən sonra Qarabağ danışıqlarının növbəti raundu keçiriləcəkdi. Lakin məhz Ermənistan paytaxtında baş verənlər növbəti görüşün reallaşmasına əngəl oldu.

**Təsadüfi deyil ki, əvvəlcə Qarabağ ermənilərinin Azərbaycanla birgə yaşamağa razı olmayacağı barədə iddialarla özünü sığortalamağa çalışan erməni prezident güzəştlərə qarşı çıxan erməni silahlılarının tələbləri və İrəvandakı davamlı aksiyaların ardınca "mən canımı verərəm, Qarabağı yox" bəyanatını verdi.** Əslində bu bəyanatın ardınca danışıqları davam etdirməyin özü mənasızdır və bunu ATƏT-in Minsk Qrupunun həmsədrləri rəsmi Bakının özü qədər də olmasa, müəyyən qədə anlayır. Ancaq yeni hərbi əməliyyatların baş verməməsi üçün prezidentləri bir masa arxasında əyləşdirməkdə beynəlxalq təşkilatlar və aparıcı dünya dövlətləri çox təkidlidir. Görünür, elə buna görədir ki, Minsk Qrupunun həmsədrləri növbəti dəfə məhz Rusiya paytaxtında - aprel müharibəsindən sonra danışıqlarda aparıcı rol oynayan ölkədə - bir araya gəliblər. Məlumata görə, sentyabrın 8-də Moskvada Rusiyanın xarici işlər naziri Sergey Lavrov ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popov (Rusiya), Ceyms Uorlik (ABŞ) və Pyer Andrye (Fransa), o cümlədən ATƏT-in Dağlıq Qarabağ üzrə fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşiklə görüşüb. Hələlik görüşün detalları açıqlanmır. Lakin məlumatda yalnız bu deyilir ki, cari il mayın 16-da Vyanada və iyunun 20-də Sankt-Peterburqda baş tutan sammitlərdə əldə edilən anlaşmaların realizəsinin gedişi də daxil olmaqla Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinin aktual məsələləri, o cümlədən Ermənistan-Azərbaycan sərhədi və təmas xəttindəki hazırkı vəziyyət müzakirə edilib. Güman olunur ki, Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşü BMT Baş Assambleyasının növbəti toplantısı çərçivəsində baş tuta bilər.

**Politoloq Elxan Şahinoğlu**nun fikrincə, aprel döyüşlərindən sonra danışıqlarda dəyişən bir şey yoxdur: "Vyana və Sankt-Peterburq görüşləri nəticə vermədi. İki aydır danışıqlarda da fasilə yaranıb. Belə bir durumda həmsədrlər nə isə fəallıq nümayiş etdirməyə çalışır, öz aralarında təmasları çoxaldıblar. Rusiyanın xarici işlər naziri Sergey Lavrovla görüş də bu qəbildəndir. Ancaq bu görüş və məsləhətlərin münaqişənin həllinə təsiri yoxdur. Çünki böyük dövlətlər əvvəlki tək Ermənistan hakimiyyətinə təzyiq etmək istəmirlər. Ona görə də belə vəziyyətdə Azərbaycan ordusunun işğalçıya təzyiq etməkdən başqa alternativi qalmayıb. Bu alternativ münaqişənin həllini sürətləndirməsə belə, işğalçı dövlətin daxilində xaosu gücləndirmək gücünə malikdir. Məhz aprel döyüşlərinin nəticəsidir ki, bu gün Ermənistanda siyasi böhran yaşanır. Ermənistan prezidenti Serj Sərkisyanın baş nazir Ovik Abramyanın istefaya məcbur edəcəyi gözlənilən idi. Sərkisyanın günahı Abramyana yükləməkdir. Prezident Serj Sərkisyan Abramyanı istefaya məcbur etməklə cəmiyyətə göstərir ki, ağır iqtisadi və sosial vəziyyətə görə Abramyan məsuliyyət daşıyır. Guya Abramyanın yerinə təyin olunacaq Karen Kapareytan durumu dəyişə biləcəkmi? İqtisadi durumu dəyişmək üçün Ermənistan resursları yoxdur, borc içindədir və heç kim ona maliyyə yardımı etmək istəmir, çünki bu - pul itkisidir. Sərkisyan vaxt udmaq istəyir, parlament seçkisinə qədər hakimiyyətini qorumağa çalışır. Məqsəd parlament seçkisində qələbə çalıb baş nazir kreslosunu əldə etməkdir. Məsələ burasındadır ki, konstitusiya dəyişikliklərindən sonra Ermənistanda əsas fiqur prezident deyil, baş nazir olacaq".



**Politoloq deyir ki, buna mane olacaq iki qüvvə var - küçələrə axışa biləcək insanlar və ya Moskva:** "Birincini birtəhər neytrallaşdıra bilər, önəmli olan ikincini razı salmaqdır. 14 sentyabrda Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına yeni baş katib seçiləcək. İndiki baş katib Nikolay Bordyujanın sözlərinə yeni baş katib Ermənistandan olacaq. Belə anlaşılır ki, həmin namizədin kimliyi ətrafında qapalı müzakirələr gedir. Nikolay Bordyuja İrəvanı su yoluna döndərmişdi, Ermənistanın mövqeyini dəstəkləyir və zaman-zaman bizi narahat edən açıqlamalar verirdi. Buna baxmayaraq, Bordyuja Rusiyanın təmsilçisi idi və tam özfəaliyyətlə məşğul ola bilməzdi, yəni Kremlin istəyi əleyhinə Azərbaycanı hədəf götürə bilməzdi, onun üçün müəyyən qırmızı cizgilər var idi. İndi isə baş katib erməni olacaq və aydındır ki, öz ölkəsinin maraqlarından çıxış edəcək. Baş katibi erməni olan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından gələcəkdə istənilən təxribat gözləmək mümkündür. Yeganə ümid Azərbaycanın tərəfdaşları olan Belarus və Qazaxıstanadır. Bu iki dövlət Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvləri olaraq erməni baş katibi mümkün təxribatlardan çəkindirməlidir. Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatındakı üzvlüyünün məqsədi digər üzv dövlətləri Azərbaycanla qarşı-qarşıya qoymaqdır. Ancaq hələ ki, özündən başqa digər üzv dövlətlər Azərbaycanla münasibətləri gərginləşdirmir, tam əksinə, aprel döyüşlərində qurum neytrallığını qorudu".

**E.Şahinoğluya görə, başqa cür ola da bilməzdi**: "KTMT Ermənistanın təhlükəsizliyinə cavabdehdir, Azərbaycanın isə Ermənistana hücum etmək planı yoxdur, Dağlıq Qarabağ və ətraf rayonları azad etməyə çalışır. Dağlıq Qarabağ və ətraf rayonlar isə KTMT-nin yurisdiksiyası xaricindədir. Ona görə növbəti dəfə müharibə başlasa, təşkilat Ermənistanı xilas edən deyil".

**Politoloq Arzu Nağıyev** də bildirdi ki, Ermənistanın baş naziri Ovik Abramyanın istefası gözlənilən olub: "Çünki ilk növbədə o, Serj Sərkisyanın başçılıq etdiyi Ermənistan Respublika Partiyasına sədrlik edirdi. Burada siyasi məqam həm gələcək seçkilər üçün onu qorumaq və bir sıra siyasi məğlubiyyətləri onun adına bağlamaqdır. Maraqlısı da odur ki, onun yerinə İrəvanın keçmiş meri Karen Karapetyan gətirilir, o isə Rusiyanın "Qazprom" şirkətinin "Mejregionqaz" filialının baş direktor müavinidir. Yəni burada da Moskvasız ötüşə bilmirlər. Bundan başqa son zamanlar iqtisadi vəziyyətin həddən artıq geriləməsi, siyasi proseslərin gərginləşməsi də öz rolunu oynayıb. Dağlıq Qarabağ kontekstindən baxanda isə ola bilər ki, baş nazir Ovik Abramyan bir sıra cavabdehlikləri üzərinə götürmək istəmir".

**A.Nağıyev bir mühüm məqamı da vurğuladı. Bildirdi ki, aprel hadisələrindən sonra Ermənistanın uduzmasını ilk dəfə Abramyan bəyan edib:** "Yeni Sərkisyanın cinayətkar komandasında da artıq narazılıqlar başlayıb. Bu, bir siyasi gediş də ola bilər, lakin Moskva və Qərb təbii ki, öz maraqları çərçivəsində artıq təzyiqlərini artırır və İrəvandan münaqişə ilə bağlı konkret qərarlar gözləyir. Məlumdur ki, ABŞ-da seçkilərlə bağlı dünyada müəyyən siyasi dəyişikliklər baş verə bilər, yəqin ki, ermənilər də noyabra qədər müəyyən siyasi gedişlər etməklə vaxt uzadacaqlar. Belə bir vəziyyətdə münaqişənin həllinin hərbi tərəfi gözlənilən deyil, çünki artıq idarəedilməz bir vəziyyət yarana bilər. Bir məqam da Rusiyanın Gürcüstana tərəf yönələn siyasi addımlarının Dağlıq Qarabağ vasitəsilə həyata keçirməyə çalışmasıdır. Belə ki, separatçı Abxaziya hakimiyyətinin Dağlıq Qarabağı tanıması ilə bağlı verdiyi saxta bəyanatlar buna bir sübutdur. Düşünürəm ki, bütün bunların hamısı siyasi gedişlərdir, məqsəd isə danışıqları uzatmaqla vaxt udmaq və hakimiyyətin ömrünü uzatmağa çalışmaqdır".

YENİ MÜSAVAT
N 201 (6522) 10 sentyabr 2016

# İş adamının qətli ilə bağlı məhkəmədə dəhşətli fakt ortaya çıxdı

## Təqsirləndirən Mahnurə Hüseynova: "Türmədə uşağım dünyaya gəldi, yoxa çıxardılar, üzünü görmədim"

**Bakı Ağır Cinayətlər Məhkəməsində "Bakı Taxıl Terminalı" MMC-nin baş texnoloqu Qalib Bağırovun qətlində təqsirləndirilən Ehtiram Həsənov, Mübariz Əliyev və Mahnurə Hüseynovanın cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**



Musavat.com xəbər verir ki, hakim Eynulla Vəliyevin sədrliyi ilə keçirilən prosesdə ilkin baxış iclası baş tutub.

Dövlət ittihamçısı ittiham aktını elan edib. Təqsirləndirilən şəxslərin hər üçü özlərini təqsirli bildiklərini deyiblər.

E.Həsənov istintaqa verdiyi ifadəni təsdiq etdiyini deyib: "Hər şeyi mən etmişəm, mən planlamışam".

M.Əliyev də istintaqa verdiyi ifadəni təsdiq etdiyini deyib: "Amma soyğunçuluqda iştirak etməmişəm".

**M.Hüseynova isə hadisə barədə ifadə verib. O, qətl işində iştirakının olmadığını deyib**: "Ehtiram mənim ikinci həyat yoldaşımdır. Əslində, sonradan bildim ki, onun düzəltdirdiyi nikah da saxta imiş, özü kimi... Ehtiramla təzə tanış olanda özünü mənə "polkovnik Həsənov" kimi təqdim etmişdi. Tez-tez zəng edib hal-əhval tuturdu. Qalib müəllimin öldürülməsindən isə mənim xəbərim olmayıb. Ehtiram mənə rəhmətliyin evindən oğurluq etməyi təklif etdi, razılaşmadım. Sonra lotu dostları vasitəsilə qızımı oğurlatdıracağı ilə hədələdi. Razılaşdıq, plana görə mən Qalib müəllimi çölə çıxaracaqdım, onlar da içəri girib onu qorxudub pulları alacaqdılar. Hadisə günü mən maşında gözlədim, Ehtiramla Mübariz evə girdi. Bir də səhərə yaxın gəldilər. Ehtiramın qorxusundan maşından çıxmamışdım. Gələndən sonra aralarında söhbət oldu. Mübariz Ehtiramdan soruşdu ki, niyə öldürdün onu? Ehtiram dedi ki, o, məni tanıdı, ona görə də öldürdüm".

**Təqsirləndirilən Məhnurə Hüseynova məhkəmə müraciət edərək bildirib ki, o, tutulan zaman digər təqsirləndirilən Ehtiram Həsənovdan hamilə olub**: "Mənim uşağım doğulandan sonra üzünü göstərməyiblər. Yoxdur, ümumiyyətlə. Yoxa çıxarıblar. Nə ölüsündən, nə də dirisindən xəbər yoxdur".

Hakim bildirib ki, bununla bağlı prokurorluq orqanlarına müraciət etsin.

**Mübariz Əliyev də quldurluq təklifinin Ehtiram Həsənovdan gəldiyini deyib:** "Ehtiram dedi ki, qızım xəstədir, müalicəsi üçün pul lazımdır. Buna görə də evə girməyimizi təşkil etdi, mən də razılaşdım".

**Bundan sonra zərərçəkmiş tərəf kimi, mərhum Qalib Bağırovun qardaşı Elşən Bağırov ifadə verib. O deyib ki, Q.Bağırovun oğlu ona zəng edib, bağ evinə gəlməsini istəyib:** "Evə çatanda bildim ki, qardaşımı öldürüblər, meyiti də özüm gördüm. Qanunvericilikdə güllələnmə ləğv edildiyi üçün ən ağır cəzanın verilməsini istəyirəm. Bunlar cəmiyyət üçün təhlükəli insanlardır".

Zərərçəkmiş Ruhiyyə Əkbərova ifadə verərək E.Həsənovun M.Hüseynova vasitəsilə ondan 10 min manat alıb qaytarmadığını deyib.

Digər zərərçəkmişlər Səadət Şəbiyeva və Nuriyyə İsaqova səhər saatlarında işə gedərkən soyğunçuluğa məruz qaldıqlarını və çantalarının əllərindən alındığını deyiblər.

Qətl törədilən gün istifadə edilən avtomobilin icarəyə götürüldüyü şirkətin rəhbəri Röya Quliyeva və əməkdaşı Hüseyn Salmanov ifadə verərək təsdiqləyiblər.

Mərhum Q.Bağırovun iş yoldaşı Sahib Hüseynov ifadə verərək hadisə günü baş verənləri danışıb: "Qalib müəllim hər gün səhər tezdən işə gəlirdi. Həmin gün gəlmədiyi üçün icraçı direktor Aydın Rüstəmov və növbə rəisi Nadirxan Əliyev ilə Qalib müəllimin evinə getdik. Otaqda yerdə uzanılı vəziyyətdə idi, ev də dağınıqdı. Polisə və təcili tibbi yardıma xəbər verdik".

**Ehtiram Həsənov deyib ki, evə girərkən Qalib Bağırov onları tanıyıb:** "Mənim maskam üzümdən çıxdı, rəhmətlik dedi ki, mən sizi tanıyıram, kimin göndərdiyini də bilirəm. Amma kimin göndərdiyini demədi".

M.Əliyev deyib ki, evdə olarkən E.Həsənov ona Qalibi öldürməyi əmr edib: "Mən iki bıçaq vurandan sonra dedi ki, sən bacarmırsan, bıçağı alıb özü də 4 dəfə vurdu".

Q.Bağırovun oğlanları Pənah, Bayram və həyat yoldaşı Bahar ifadə verərək hadisə günü bağ evinə getdikdən sonra qətldən xəbər tutduqlarını deyiblər.

Məhkəmə istintaqı tamamlanıb. Dövlət ittihamçısı çıxış üçün vaxt istəyib. Məhkəmə prosesi sentyabrın 16-da davam etdiriləcək.

Qeyd edək ki, bu il yanvarın 8-də "Bakı Taxıl Terminalı" MMC-də baş texnoloq işləyən Qalib Bağırovun üzərində zorakılıq əlamətləri olan meyiti yaşadığı Suraxanı rayonu, Hövsan qəsəbəsi, "Bağlar" yaşayış massivindəki evində aşkar olunub.

Cinayəti törətməkdə şübhəli bilinən Ehtiram Həsənov, Məhnurə Hüseynova və Mübariz Əliyev tutulublar.

**Müəyyən edilib ki, qeyd edilən şəxslər qabaqcadan əlbir olaraq həmin gün saat 7 radələrində Qalib Bağırovun yaşadığı bağ evinə gəlib çoxsaylı xəsarətlər yetirməklə və iplə boğmaqla onu öldürüblər. Sonra mənzildə olan 300 manat, 30 avro, 10 dollar, 10.000 belorus rublu məbləğində pulu, mərhuma məxsus gödəkcə və papağı, mobil telefon və planşeti götürərək hadisə yerindən gediblər.**

❑ **İ.MURADOV**



# Ofisiant müştərini bıçaqladı, 5 il 6 ay həbs cəzası aldı

**Bakı Ağır Cinayətlər Məhkəməsində qəsdən sağlamlığa ağır zərər vurmaqda təqsirləndirilən Elşad Həsənlinin məhkəmə prosesi başa çatıb. Musavat.com xəbər verir ki, hakim Mahmud Ağalarovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.**

Məhkəmənin hökmü ilə Cinayət Məcəlləsinin 126 və 128-ci maddələri ilə təqsirləndirilən E.Həsənli 5 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

Ona qarşı irəli sürülən 128-ci maddəyə xitam verilib.

Təqsirləndirilən şəxsin əməlindən peşman olması, zərərçəkmiş tərəflə barışıq əldə edilməsi, dəymiş zərərin ödənilməsi yüngülləşdirici hallar kimi nəzərə alınıb.

E.Həsənli son sözündə bu əməli özünü qorumaq üçün etdiyini bildirib.

Qeyd edək ki, tərəflər arasında mübahisə E.Həsənlinin işlətdiyi obyektdə olub. Müştəri kimi obyektə gələn Azər İsayev ofisiantın gətirdiyi çayın soyuq olmasına etiraz edib. Tərəflər arasında mübahisə yaranıb. Nəticədə E.Həsənli A.İsayevi bıçaqlayıb.

Xatırladaq ki, dövlət ittihamçısı çıxışında E.Həsənlinin 6 il 6 ay müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Hadisə bu ilin oktyabrın 12-də Xarici Dairəvi küçəsində Bakı şəhər sakini Azər İsayevə bıçaq xəsarəti yetirilib. Binəqədi Rayon Polis İdarəsinin 5-ci Polis Bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində cinayətdə şübhəli bilinən Samux rayon sakini, 1992-ci il təvəllüdlü E.Həsənli tutulmuşdu.

**O, Cinayət Məcəlləsinin 126-cı (qəsdən sağlamlığa ağır zərər vurma) və 128-ci (qəsdən sağlamlığa yüngül zərər vurma) maddəsi ilə ittiham olunurdu.**

❑ **İ.MURADOV**

**Elan**

**QƏlnarə Lələyeva Qafar qızı adına olan Masallı rayon Aqrar İslahat Komissiyası tərəfindən verilmiş Torpaq Sahəsinin Qaiməsi itdiyi üçün etibarsız sayılır**

**Elan**

**Qəbələdə bağ sahibi olmaq istəyənlərin nəzərinə!**

**Qəbələnin gözəl ərazisi olan Vəndam kəndində yola yaxın, dağın ətəyində, meyvə ağacları ilə dolu 54 sot torpaq sahəsi satılır. Hissə-hissə də (6 sot) almaq mümkündür.**

**Əlaqə telefonu: (050) 371-01-60, (070) 335-90-15**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarrın dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Təbib Darya xanım**

Onurğa yırtığı, osteoxandroz, sağalmaz yaralar, yanıqlar, uzun müddət yataqdan sonra əmələ gələn yaralar, diabetdə trafik xoralar, varikoz genişlənmələr və digər xəstəlikləri cərrahi müdaxiləsiz, xüsusi məlhəmlərlə və xüsusi metodika ilə inyeksiyalarla müalicə edirəm.

**Tel: 051- 634- 40-01**

YENİ MÜSAVAT
N 201 (6522) 10 sentyabr 2016

# Orijinal məktəbli formasını saxtasından necə ayırd etməli?

**Etibar Əzimov:** "Bakı Tikiş Fabrikinin Bakı Tikiş Evinə aidiyyəti yoxdur"

**Cəsarət Valehov:** "Məktəbli formasının satışı və ya alışı ilə bağlı məcburetmə tədbir ola bilməz"

**Yeni tədris ilinin başlamasına artıq sayılı günlər qalıb. Valideynlərin əksəriyyəti məktəb alış-verişini yekunlaşdırsa da, müəyyən məqamlar var ki, onları düşündürür. Bu məqamlardan biri məktəbli formaları ilə bağlıdır.**

Satışda üzərində Bakı Tikiş Evinin (BTE) və Bakı Tikiş Fabrikinin (BTF) emblemləri olan məktəbli formaları var. Bundan əlavə, məktəbli formalarının qiymətində də fərqin olması valideynlərdə çaşqınlıq yaradıb. Onlar hansı məktəbli formasının orijinal olduğunu, BTE yoxsa BTF tikdiyi məktəbli formalarının keçərli olduğunu bilmirlər. Baş çəkdiyimiz bir neçə mağazada həm BTF, həm də BTE emblemi vurulmuş məktəbli formalarına rast gəldik. Satıcılardan bunun hansının əsas olduğunu soruşduqda "ikisi də eynidir" cavabını aldıq. Valideynlər isə bəzən aldıqları məktəbli formasını məktəbdə qəbul edilmədiyini deyirdilər.

**Afaq Quliyeva adlı valideyn keçən il BTF emblemi olan məktəbli formasını aldığını ancaq məktəbdən həmin formanı geyinməyə icazə verilmədiyini dedi:** "Keçən il dedilər ki, yalnız BTE yazılan məktəbli forması olmalıdır. İki dəfə xərcə düşdüm. İndi də BTE-yə məxsus məktəbli formaları bir-birindən çox fərqlənir. Biri nazik solğun rənglidir, biri də yüksək keyfiyyətli. Hansını seçək bilmirəm".





Biz də bu məsələyə aydınlıq gətirmək üçün **Bakı Tikiş Evinin satış sektorunun şöbə rəisi Etibar Əzimov**a müraciət etdik. E.Əzimov əsl məktəbli formasının BTE emblemi olan məktəbli forması olduğunu dedi: "Bakı Tikiş Evinin emblemi vurulmuş saxta məktəbli formaları da var. BTE-nin adından Çindən saxta geyimlər gətirilir. BTE-yə müəlliflik hüququ verilib. 4 model məktəbli forması - 1-6 və 7-11-ci siniflər üçün nəzərdə tutulan məktəbli formaları modellərinin istehsalı üçün bizim müəlliflik hüququmuz var. Amma kimlərsə gedib bu məktəbli formalarının Çin oxşarını gətirib üzərinə BTE, ya da BTF-nin emblemini vurur. BTF-nin Bakı Tikiş Evinə aidiyyəti yoxdur. Bu başqa fabrikdir. Bizim mallarımız ancaq bizə məxsus mağazalarda satılır. Bakıda BTE-yə məxsus 14 mağaza var. Biz ancaq oradan alınan mallara zəmanət veririk. Bu paltarları şagirdlər minimum 2 il geyinə bilər. Təəssüflər olsun ki, saxta paltarlarla camaatı çaş-baş salır, ölkəyə saxta paltarlar gətirib dükan və yarmarkalarda satırlar. Bizim qaynar xətt telefonumuz var - 5974539. Hər kəs bu qaynar xətt telefonuna zəng edib əsl məktəbli formalarını haradan əldə edə biləcəyini öyrənə bilər. Biz bu formaların həm keyfiyyətinə, həm də uyğunluğuna zəmanət veririk. Amma başqa yerdən alınan məktəbli formalarına qarantiya vermirik. Banditizmə qarşı mübarizə adlı bir təşkilat var. O, zirzəmidə bu cür məktəbli formaları tikib üzərinə də BTE yazan sex aşkar edib. Bax, çaş-başlıq bundan qaynaqlanır. Əgər bizim tikiş evinə məxsus məktəbli forması kiminsə xoşuna gəlməsə, biz ona cavabdeh olarıq. Amma başqa yerdən, yarmarkalardan, Sədərəkdən alınan malları biz tanımırıq, onlar bizim mallar deyil. Bizim saytımızda mağazalarımızın telefon nömrələri və ünvanları var. Məsələn, kənar qəsəbələrdə, Mərdəkanda, Xırdalanda, Sumqayıtda, Binəqədi rayonunda və digər yerlərdə var".

**Müsahibimizin sözlərinə görə, saxta məktəbli formaları tikən insanlar bu işdə o qədər mahirdirlər ki, bəzən onu orijinaldan seçməkdə çətinlik çəkirsən:** "Onlar bizim nümunəni götürüb Çinə aparıb orada zirzəmidə ucuz işçi qüvvəsinə tikdirirlər. Bu məktəbli formalarını nimdaş parçalardan ucuz qiymətə tikib, gətirib burada baha qiymətə satırlar. Bütün respublikada bu saxta paltarlar yayılıb və BTE adı ilə satılır. Orijinal məktəbli forması ilə saxtasını parçasına baxmaqla seçə bilərsiz. Saxta məktəbli formalarının parçaları çox nimdaş, solğun rəngdə, səliqəsiz tikilişlidir. Baxan kimi ayırd etmək olar. Bu paltarlar tez tiftiklənir, yağışa, suya dəyən kimi rəngi qızarır və sairə".

Rayonlarda olan məktəbli formaları ilə paytaxtda satılan məktəbli formalarının arasındakı qiymət fərqinə gəlincə isə E.Əzimov rayonlarda Bakı Tikiş Evinin ofisinin olmadığını dedi: "Rayonlara paltarlar Bakıdan aparılır. Ola bilər ki, bizim paltarları alıb işbazlıq edir və baha qiymətə satırlar".

**Təhsil Nazirliyinin mətbuat xidmətinin rəhbəri Cəsarət Valehov** isə Təhsil Nazirliyinin nəzdində fəaliyyət göstərən Təhsil TV-də valideynlərə məktəbli formaları ilə bağlı müraciət edib: "Valideynlərə üz tutaraq demək istəyirik ki, hər hansı bir məktəbli formasının satışı və yaxud alışı ilə bağlı məcbur etmə tədbirləri ola bilməz. Yəni heç bir məktəb və yaxud da yerli təhsil idarə etmə qurumları məktəbli formalarının müəyyən olunmuş ticarət şəbəkələrindən alınması ilə bağlı şərt qoya bilməzlər. Valideynlər istədikləri ticarət şəbəkəsindən məktəbli formasını almaqda sərbəstdirlər".

❑ **Günel MANAFLI**

**Fotolar müəllifindir**

# Lənkəran məktəbliləri hər an faciə ilə üzləşə bilər






## Siyavar kənd orta məktəbi uça bilər

**Bir müddət əvvəl Lənkəran rayonu Siyavar kəndində şəhid Faiq İbrahimovun adını daşıyan orta məktəbin qəzalı vəziyyətdə olduğu barədə məlumat vermişdik. Bu günlərdə isə kəndə yağan güclü yağışlar məktəbi daha da bərbad, hər an faciə yarada biləcək vəziyyətə salıb. Bu barədə "Yeni Müsavat"a kənd sakinləri məlumat verib. Sakinlərin dediyinə görə məktəbin dam örtüyünün yararsız halda olması nəticəsində yağış suları siniflərə axaraq, tavanın çökməsinə səbəb olub. Siniflərdə hər an qəza, faciə baş verməsi qaçılmazdır.**

Xatırladaq ki, qeyd olunan məktəbin bərbad vəziyyətdə olduğu barədə musavat.com saytında "Şəhid adını daşıyan məktəbin "qara üzü"" adlı yazı dərc olunmuşdu. Yazıda bildirilirdi ki, şəhid adını daşıyan məktəbin 300-ə yaxın şagirdi var və onlar bu il də qəzalı vəziyyətdə olan məktəbdə təhsil almaq məcburiyyətindədir. Məktəbin sinif otaqları, dam örtüyü, qapıları bərbad, sınıq-salxaq, döşəməsi deşik-deşikdir. Rəsmi sənədlərə görə təxminən 1924-cü ildə tikilən məktəbdə bu günə qədər yalnız bir neçə dəfə kosmetik təmir işləri aparılsa da, qəzalı vəziyyət aradan qaldırılmayıb, siniflər rütubətlik üzündən xəstəlik mənbəyinə çevrilib. Kənd sakinləri yaranmış vəziyyətlə bağlı dəfələrlə aidiyyəti orqanlara müraciət etsələr də, məktəbin təmirini heç bir qurum öz üzərinə götürmək istəməyib.

**Məsələ ilə bağlı Lənkəran Rayon icra Hakimiyyəti ilə əlaqə saxladıq. Qurumdan tezliklə məsələyə aydınlıq gətiriləcəyi bildirildi.**

❑ **Xalidə GƏRAY**




# Şəkinin Böyük Dəhnə kəndi su problemi ilə üzləşib

## Kənd sakinləri içməli suya da həsrət qalıb

**Əkinçilik və ipəkçilikdə hər zaman fərqlənən Şəkinin Böyük Dəhnə kəndi su problemi ilə üzləşib. Kənd sakinləri su probleminə görə əkin sahələrinin məhv olduğunu deyirlər. Redaksiyamıza göndərdikləri məktubda kənd camaatı hazırda kəndin xüsusilə yuxarı hissəsində, Hacıəhmədli küçəsi adlanan ərazidə içməli suyun və suvarma suyunun olmadığını qeyd edirlər: "Su olmadığı üçün nəinki əkinçiliklə məşğul ola, heç normal yaşaya bilmirik. Bu ərazidə yaşayan 40-a yaxın ailənin, uşaqlı-böyüklü 200 nəfərə yaxın sakinin yaşayışı çox acınacaqlıdır. Şəhidlər xiyabanının qarşısındakı bulağa da su gəlmir, orada ucaldılmış abidənin ətrafındakı yaşıllıq da susuzluqdan tamamilə yanıb".**

Kənd sakinləri 4 ildir ki, suvarma suyu olmadığı üçün həyətyanı sahələrdə tərəvəz məhsulları yetişdirə bilmədiklərini deyirlər. Onlar artıq bir ilə yaxındır ki, içməli suyu da pulla aldıqlarını bildirirlər. Kənd sakinləri dəfələrlə aidiyyəti qurumlara müraciət etsələr də, onların şikayətinə baxan olmadığını yazırlar. Sakinlər aidiyyəti qurumlardan onların su probleminin həll etməsini xahiş edir.

Məsələ ilə bağlı dəfələrlə "Azərsu"nun mətbuat xidmətinin rəhbəri Anar Cəbrayıllı ilə əlaqə saxlamağa çalışsaq da, telefon zənglərimizə cavab verən olmadı.

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT

Son səhifə

N 201 (6522) 10 sentyabr 2016



## İlan zəhərinə qarşı pivə

**Avtraliyalı Rod Sommetvili zəhərli ilan sancandan sonra ilk növbədə təcili yardım xidmətinə müraciət edib, ardınca isə soyuducudan pivə çıxararaq içməyə başlayıb. "Huffington Post"un xəbərinə görə, 54 yaşlı Kvinslend sakini daha sonra bu durumu belə izah edib: "Qərar verdim ki, panikaya düşməyim. Yersiz həyəcan vəziyyəti daha da pisləşdirə bilər. Fikirləşdim ki, əgər öləcəmsə, heç olmasa pivə içərək ölüm".**

Xəbərə görə, həkimlər gələnə qədər R.Sommetvil 5 butulka pivə içib. Həkimlər gələndə isə xəstə sərxoş və huşsuz vəziyyətdə olub.

## Alim özünü ilana yedirtmək istədi...

**"Discovery Channel"in efirində nümayiş etdirilən eksperiment zamanı ilginc hadisə baş verib. Belə ki, anakonda eksperimenti həyata keçirən alimi "yeməkdən" imtina edib. İri bir ilan tərəfindən yeyilmənin necə bir hiss olduğunu araşdırmaq istəyən alimin adı isə Pol Rozoli olub. Geyindiyi xüsusi kostyum onun sağ və zərərsiz qalmasına yardım edəcəkdi.**

Amma anakondanı araşdırma qrupu aldada bilməyib. Belə ki, ilan onu yeməkdən imtina edib, sadəcə qolunu və çiynini möhkəm sarıb. "Sarılmalar" möhkəmlənəndə isə alim özünü ilandan azad edib və eksperimenti dayandırıb. Ötən ilin dekabrında alim təcrübə zamanı bir saat ilanın içində olmağı başarıb. Bu təcrübə ilə bağlı o, təəssüratlarını belə ifadə edib: "Axırıncı xatırladığım şey ilanın mənim üzümün qabağında geniş açılan ağzı idi. Ondan sonra hər şey qaraldı".

# Gələcəkdə içməyə qəhvə tapmayacağıq

**Qlobal iqlim dəyişiklikləri qəhvə pərəstişkarlarına da ağır zərbə vuracaq. İqlim şərtlərinin dəyişməsi "Arabica" növlü qəhvəni tam məhv edə bilər. Alimlərin dediklərinə görə, "Arabica" növündən olan qəhvə 2080-ci ildə yox olacaq.**



Londondakı Kral Nəbatat Bağının alimlərinin "Plus One"da dərc olunmuş hesabatında bildirilir ki, dəm qazının yaratdığı mənfi effektlər "Arabica" növlü qəhvənin 99,7 faizini tam məhv edəcək. Zəngin genetik fərqlərə malik "Arabica"nın yox olması dünya qəhvə istehsalatına böyük zərbədir. Efiopiyada kəşf edilmiş ilk qəhvə ağacından alınmış "Arabica" növlü qəhvə ağacı ildə təxminən 5 kq meyvə verir. Həmin meyvələrdən 1 kq qəhvə çəyirdəyi əldə olunur.

# Qız müalicə olunmaq istəmirdi, məhkəmə qərar çıxardı

**Amerikanın Konnektikut ştatında məhkəmə 17 yaşlı qızın məcburi qaydada kimyəvi müalicə alması üçün qərar çıxarıb. Bu barədə lenta.ru saytı xəbər verir. Kassander soyadlı qıza xərçəng diaqnozu qoyulandan sonra ona kimyəvi müalicə kursu yazılıb. Gənc qız isə hesab edir ki, bu müalicə onun səhhətinə daha böyük zərbə vuracaq, nəinki xəstəliyi.**

Qızını atasız, təkbaşına böyüdən anası Ceki Fortin isə bildirib ki, qızının mövqeyi ilə razıdır və onu dərmanla zəhərləməyə icazə verməyəcək. Kassandra özü isə iki kimyəvi müalicə prosedurundan sonra tibb mərkəzindən qaçıb. Mərkəzin rəhbərliyi isə onunla bağlı öncə valideynlərinə, ardınca isə məhkəməyə müraciət edib. Həkimlər bildirib ki, əgər xəstə onların tövsiyələrinə əməl etsə, sağalma şansı 80-85 faizdir. Məhkəmə də son nəticədə xəstəxananın tələbini yerinə yetirən qərar çıxarıb. Ana-qız isə konstitusiya hüquqlarının pozulduğunu iddia edərək, qərardan şikayət ediblər.





## Gözün mavidirsə... alkoqola meyllisən

**ABŞ-ın Vermont Universitetində həyata keçirilən bir araşdırmada qəribə nəticələr əldə edilib. Araşdırmaya görə, göz rəngi mavi olan insanlar daha çox spirtli içki qəbul edirlər. Mavi gözlülər potensial alkoqolik olaraq təqdim olunur. Nəticələrə genetik araşdırmalar səbəb olub.**

"Focus Online"da yer alan xəbərdə qeyd edilir ki, mavi gözlülərlə paralel olaraq, gözü rəngli olanlar üçün də bu nəticə keçərlidir. Belə ki, insanlara göz rəngini verən genlər onların alkoqol meylliliyinə də təsir göstərir. Amma alimlər onu da bildirib ki, araşdırmanın test nəticələri bu cür çıxsa da, bu sahədə daha ciddi araşdırmalar aparılmalıdır. Göz rəngi ilə xarakter arasında bir əlaqə olub-olmaması da araşdırmaların mövzularından biridir.

## Qoroskop




**QOÇ** - Astroloji göstəricilərə görə, maddi durumunuzda müəyyən irəliləyişlər mümkündür. Bununla yanaşı gözləmədiyiniz istiqamətdən sizə qarşı təxribat da ola bilər. Tədbirli olun.

**BUĞA** - Əsəblərinizi cilovlaya bilsəniz, heç bir qanqaraçılığı olmayacaq. Qərar çıxarmamışdan əvvəl yaxşıca götür-qoy edin. Uzaqda yaşayan qohumlarınızla əlaqə saxlayın.

**ƏKİZLƏR** - Əyləncə və gəzintilərə çox da aludə olmayın. Bu gün işgüzarlığınızı artırmalısınız. Yeni planlarınızı həyata keçirmək üçün bəzi nüfuzlu şəxslərlə görüşməyiniz vacibdir. Çağırışlara gecikməyin.

**XƏRÇƏNG** - Ehtiyatlı olun, aldanma ehtimalınız var. Etibar etdiyiniz adamlar tərəfindən hiyləgərliyə tuş gələ bilərsiniz. Yaxşı olar ki, mühüm planlarınız haqda kiməsə məlumat verməyəsiniz.

**ŞİR** - Kifayət qədər yorucu gündür. Əgər reallıq imkan versə, bütün vaxtınızı evdə və ya təbiət qoynunda keçirin. Qida və yuxu rejiminizə fikir verin. Ağır fiziki işlərdən uzaq olun.

**QIZ** - Sağlıq durumunuza xüsusi diqqət yetirin. Əks təqdirdə həkimə müraciət etməli olacaqsınız. Özünüzü stressli vəziyyətdən qoruyun. Tənhalığa qapılmaqdansa, dostlarınızla bir arada olun.

**TƏRƏZİ** - Göy qübbəsi uğurlardan vəd verir. Sadəcə, siz də özünüzü bu vəziyyətə hazırlamalısınız. Ailə-sevgi münasibətlərində xoş ovqat qazanacaqsınız. Pulsuzluğa görə narahat olmayın.

**ƏQRƏB** - Hər mənada düşərli gündür. İstər fəaliyyətdə, istərsə də qarşılıqlı münasibətlərdə bəxtiniz gətirə bilər. Günün ikinci yarısında normal qazanmaq ehtimalınız da var.

**OXATAN** - Saat 16:54-ə qədər Ay bürcünüzdə qərar tutduğundan müəyyən gərginlik müşahidə oluna bilər. İlk növbədə səhhətinizə fikir verin. İşgüzar sövdələşmələrdə iştirakınızı isə sonrakı saatlara salın.

**OĞLAQ** - Özünüreklam prinsiplərindən uzaq olun. Çünki indi belə adamlara müsbət nəzərlərlə baxmırlar. Qarşı tərəfin ədalətli fikirləri ilə razılaşın. Hər hansı mübahisəyə isə lüzum yoxdur.

**SUTÖKƏN** - Fəaliyyətlə bağlı xoşagəlməzliklər görünür. Bu amili nəzərə alıb ciddi işlərin həllini təxirə salın. Sevgi və digər münasibətlərdə isə vəziyyət xeyrinizədir. Uzaq yola çıxmaq olar.

**BALIQLAR** - Ümumi çalarlarına görə uğursuz gündür. Ətrafınızda olanlar əsəblərinizi tarıma çəkə bilər. Odur ki, hər bir situasiyada öz mövqeyinizi qabartmamalı, emosiyalara uymamalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Xırda pul əvəzinə hədiyyə...

**Amerikada da belə hadisələr baş verirmiş. Coanna Bas adlı qadın marketdə alış-veriş etdikdən sonra 115 dollarlıq hesabı ödəmək üçün kassaya yaxınlaşıb.**



Bütün pulu xırda olduğu üçün kassir ondan pul almaqdan imtina edib. "Get, kağız pulla gələrsən" cavabından sonra Coanna market rəhbərliyinə şikayət edib. Bu mədəniyyətsizliyi kompensasiya etməkdən ötrü qadına dəyəri 17 dollar olan hədiyyə çeki verilib. Amma etirazçı qadın geri qayıdanda bütün mallarının kassadan rəflərə geri qaytarıldığını görüb.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750